

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Sovet dövründə müstəqil Azərbaycanın əsası necə qoyuldu?



8

## Qətiyyətli Lider və Müzəffər Ordu-yenilməz Xalq birliyi!




6

SƏS

№ 090 (6773)

24 may 2023-cü il.
Qiyməti 60 qəpik

İLHAM ƏLİYEV: "İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan da məhz bu idi"

# Paşinyanın düşdüyü RÜSVAYÇI DURUM



13

## Əkin sahələri niyə azalıb?



16

## Cümhuriyyət dövrünün fədakar qadınları



12

## Estoniyalı deputat: "Zəngilanda bərpa və yenidənqurma işləri sürətlə həyata keçirilir"



4



## Azərbaycanlılar qəhrəman millətdir, Rəsul "bəy"

14

## Mixail Qusman: "Rusiya və Azərbaycan KİV nümayəndələrinin görüşləri ənənəsinin əsasını Heydər Əliyev qoyub"




2

# ”Ermənistanla sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə məhz Azərbaycan çıxış edib”

## *Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədrini qəbul edib*

Prezident İlham Əliyev mayın 23-də ATƏT Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelti qəbul edib. Marqareta Sederfelt Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə ”Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğulayıb və bu tədbirdə ATƏT-ə üzv ölkələrin çox sayda parlament nümayəndə heyətlərinin təmsil olunduğunu bildirib, burada gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün yaxşı imkan yarandığını deyib.



ATƏT Parlament Assambleyasının sədri nümayəndə heyəti ilə birlikdə Zəngilan rayonuna səfər edəcəklərini və ərazilərimizin yenidən qurulması prosesləri ilə tanış olacaqlarını vurğulayıb. Marqareta Sederfelt hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində media müstəvisində müsbət bəyanatların olduğunu qeyd edərək sülh gündəliyi ilə maraqlanıb.

Dövlətimizin başçısı Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğulayıb. Nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza səfərinin, orada aparılan işlərlə yerində tanış olmalarının önəmini qeyd edən Prezident İlham Əliyev hazırda həmin ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini diqqətə çatdırıb.

Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə məhz Azərbaycanın çıxış etdiyini vurğulayıb. Dövlətimizin başçısı bu xüsusda, son dövrlərdə iki ölkənin xarici işlər nazirləri səviyyəsində sülh müqaviləsinin mətni üzrə Vaşinqtonda aparılmış müzakirələri, həmçinin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə özünün Ermənistanın baş naziri ilə keçirdiyi görüşləri qeyd edib, qarşıdan gələn dövrlərdə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərin olacağını bildirib.

Prezident İlham Əliyev Azərbaycanın təqdim etdiyi 5 prinsip, xüsusilə dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı şəkildə tanınması əsasında ölkəmizin sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini vurğulayıb.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan, Gürcüstan və Ermənistanın eyni platformada bir araya gətirilməsi və inteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsü məhz Azərbaycan tərəfindən irəli sürülüb. Görüşdə nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələləri də müzakirə olunub.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə”də və 2010-cu il 26 yanvar tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının miqrasiya orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Sənan İsa oğlu Paşayev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilib. SİA xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Mixail Qusman: ”Rusiya və Azərbaycan KİV nümayəndələrinin görüşləri ənənəsini əsasını Heydər Əliyev qoyub”



Rusiya və Azərbaycan KİV nümayəndələrinin görüşləri ənənəsinin əsası daim onların təşkilinə kömək edən Heydər Əliyev tərəfindən qoyulub. AZƏRTAC xəbər verir ki, bu barədə ”Rusiya-Azərbaycan: media əməkdaşlığının aktual məsələləri” mövzusunda keçirilən dəyirmi masada TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bildirib.

M.Qusman deyib: Rusiya və Azərbaycanın media strukturları arasında dialoqun bu formatı Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin fevralında Rusiyaya rəsmi səfəri çərçivəsində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı təklif edilib. Həmin yaddaqalan görüşün iştirakçıları bu gün aramızdadır. Heydər Əliyev dəfələrlə belə görüşlərin əhəmiyyətini qeyd edib. Bu, artıq onun zamanında əsası qoyulmuş bir ənənədir və o, daim onların təşkilinə kömək edirdi. Heydər Əlirza oğlu, həmçinin TASS-da, elə bu zalda Rusiya KİV-lərinin rəhbərləri ilə görüşürdü.

O vurğulayıb ki, dəyirmi masa iştirakçıları dostluq atmosferində peşə təcrübələrini bölüşüb, yeni qarşılıqlı fəaliyyət formalarını araşdırıblar.

M.Qusman əlavə edib: ”Bu, olduqca mühümdür və biz bunu çox yüksək qiymətləndiririk. Zənnimcə, iyulda Şuşada keçiriləcək forumda da Rusiyanın bir çox KİV-lərinin nümayəndələri iştirak edəcəklər. Dialoq davam edir və bu, çox gözəl təcrübədir”.

# “İkitərəfli əlaqələrimiz yaxşı səviyyədədir”

## Prezident İlham Əliyev Monteneqro parlamentinin sədrini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də Monteneqro parlamentinin sədri xanım Daniyela Curoviçi qəbul edib. Dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin yaxşı səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev hazırkı dövrdə Avropanın enerji təchizatının şaxələndirilməsi məsələsində ölkəmizin önəmli tərəfdaşa çevrildiyini dedi, Azərbaycan ilə Monteneqro arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat və energetika sahələrində də əməkdaşlığın genişləndirilməsinin önəmini vurğuladı.**

Parlamentlər səviyyəsində əlaqələrin əhəmiyyətinə toxunan Azərbaycan Prezidenti ölkələrimizin müxtəlif parlamentlərarası beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini qeyd etdi. Dövlətimizin başçısı Daniyela Curoviçin ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığını vurğuladı.

Qonaq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi və qarşıdan gələn 28 May - Müstəqillik Günü münasibətilə təbriklərini çatdırdı.

Daniyela Curoviç Azərbaycanla Monteneqronun dost ölkələr olduğunu vurğulayaraq, Milli Məclis və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə ”Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu” mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsinin önəminə toxundu, bu tədbirdə enerji və ərzaq təhlükəsizliyi, həmçinin digər mühüm məsələlərin müzakirə olunduğunu bildirdi. Monteneqro parlamentinin sədri konfrans çərçivəsində Zəngilan rayonuna səfərin də təşkil ediləcəyini və işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma işləri ilə yerində tanış olacaqlarını diqqətə çatdırdı.



Qonaq Monteneqronun Azərbaycan ilə enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı. Ölkələrimiz arasında çarter aviareyslərinin həyata keçirildiyini deyən Daniyela Curoviç bunun turizm sahəsində əlaqələrin genişlənməsinə töhfə verdiyini qeyd etdi, gələcəkdə bu istiqamətdə də əməkdaşlığı dərinləşdirmək üçün yaxşı imkanların olduğunu bildirdi. Görüşdə, həmçinin sərmayələr sahəsində əməkdaşlıq məsələləri də müzakirə olundu.

**“Bu gün biz regional məsələlərlə də bağlı geniş fikir mübadiləsi apardıq. Litva Prezidentini Azərbaycan-Ermənistan sülh danışıqları haqqında məlumatlandırdım. Biz ümid edirik ki, sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək”. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib.**



# Azərbaycan-Litva:
## Sülh və inkişafa xidmət edən
# DOSTLUQ!



Bəyanatında Azərbaycan torpaqlarının uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında olduğunu bir daha xatırladan dövlətimizin başçısı qeyd edib: ”Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir”.

Bəli, son illər Azərbaycanın dünya miqyasında nüfuzu artmaqda, beynəlxalq əlaqələri genişlənməkdədir. Prezident İlham Əliyevin müxtəlif ölkələrə ardıcıl səfərləri və ayrı-ayrı dövlətlərin başçılarının Azərbaycana səfərləri bunun bariz nümunəsidir. Belə ki, səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsi, mühüm sənədlərin imzalanması və hər ikirezidentlərinin mətbuata bəyanatlarla çıxış etmələri münasibətlərin inkişafına mühüm töhfə verəcək.

### AZƏRBAYCAN PREZİDENTİNİN ERMƏNİSTANA NÖVBƏTİ MESAJI: ERMƏNİSTANLA ANLAŞMANIN İMZALANMASI QAÇILMAZDIR

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Gitanas Nauseda mayın 22-də Vilnüsdə mətbuata bəyanatında bir daha Enmənistana öz mesajını göndərdi: ”Ermənistanla anlaşmanın imzalanması qaçılmazdır”.

Prezident İlham Əliyev mətbuata bəyanatla çıxışında bildirdi ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazisinin 20 faizini işğal altında saxladı, beynəlxalq hüququ pozdu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmədi və ona qarşı heç bir sanksiya tətbiq olunmadı. Biz hər zaman müharibənin qarşısını almaq üçün Ermənistana qarşı sanksiyaların tətbiq olunmasını istəyirdik. Biz Minsk qrupunun nəticə əldə etməsini gözləyirdik, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrinigözləyirdik. Lakin heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur.

Bəli, Ermənistanın işğalçılıq siyasətiə son qoymaq və ərazi bütövlüyümüzü ədalətlə bərpa etmək üçün 3 min həyatı qurban verməli olduq. Və 2020-ci il noyabr tarixli üçtərəfli Bəyanatının imzalanması ilə Ermənistan kapitulyasiya oldu. Və Azərbaycan haqqın, ədalətin tərəfdarı olduğunun sübut etdi və sülhün tərəfdarvı olduğunu sübut etdi. Dövlət başçımızın dediyi kimi

### BİZİM ERMƏNİSTANA SÜLH TƏKLİFİMİZ QALİB ÖLKƏNİN TƏKLİFİDİR, MÜZƏFFƏR XALQIN TƏKLİFİDİR

Prezident İlham Əliyev görüşlərində, çıxışlarında dəfələrlə vurğulayıb ki, bizim təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Və Ermənistanın bu hərəkəti, çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər. Çünki bizim bu təklifimiz yeni real vəziyyətə əsaslanır. Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar. Ancaq 44 günlük İkinci Vətən müharimbəsindən iki il keçməsinə baxmayaraq Azərbaycan tərəfindən Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr əldə olunmayıb. Ermənistan hələ də məcburən öz üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir. Və Ermənistan tərəfi başa düşməlidir ki, revanşist açıqlamaların, bəyanatların, sülh prosesindən yayınmağa cəhd göstərilməsinin onlara heç bir faydası yoxdur.

**PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan ilə Ermənistan arasında sülh anlaşmasının imzalanması qaçılmazdır"**

Dövlət başçımızın söylədiyi kimi: ”Çünki Qarabağ münaqişəsi həll olunub, Qarabağ mövzusu bağlanıb. Qarabağ Azərbaycandır! Bunu mən demişəm və haqlı olaraq demişəm, indi bunu hamı deyir. O cümlədən Ermənistan deyir-öz xoşu ilə yox, məcburən. Bu məsələ ilə bağlı müzakirə apardığımız bütün ölkələr, təşkilatlar deyir”.

### CƏNUBİ QAFQAZDA POSTMÜHARİBƏ DÖVRÜNDƏ AZƏRBAYCANIN SÜLH VƏ SABİTLİYƏ SADİQLİYİ XÜSUSİLƏ DÜNYADA ƏN BÖYÜK SİYASİ VƏ İQTİSADİ MƏRKƏZLƏRDƏN BİRİ OLAN AVROPA İTTİFAQI TƏRƏFİNDƏN YÜKSƏK SƏVİYYƏDƏ DƏSTƏKLƏNİR

Heç şübhəsiz ki, Prezident İlham Əliye çıxışlarında Avropa İttifaqı ilə bağlı mksajları da diqqətdən yayınmır. Belə ki, bu günlərdə, yeni mayın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti Brüssel formatında sayca beşinci görüşü keçirildi. Yeri gəlmişkən, xatırladaq ki, Cənubi Qafqazda postmüharibə dövründə Azərbaycanın sülh və sabitliyə sadiqliyi xüsusilə dünyada ən böyük siyasi və iqtisadi mərkəzlərdən biri olan Avropa İttifaqı tərəfindən yüksək səviyyədə dəstəkləndi. Aİ Şurasının Prezidenti Şarl Mişellə Azərbaycan Prezidenti İlham Əliyev arasında intensiv dialoq və təmaslarla Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanmasında, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli istiqamətində əməli addımlar atılmasında özünü qabarıq büruzə verdi. Nəticədə postmüharibə dövründə yeni format - Brüssel sülh gündəliyi yarandı. İlk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də keçirildi, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyuldu və tərəflər arasında intensiv təmaslar aparıldı, telefon danışıqları gerçəkləşdirildi. Xatırladaq ki, Brüssel sülh gündəliyində prioritet istiqamət olan sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür.

Avqustun 31-də Brüsseldə keçirilən dördüncü üçtərəfli görüş dövlətimizin başçısı Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticə əldə edə bildi. Beləliklə, bir ay müddətində Xarici İşlər Nazirliyi xətti ilə sülh sazişinin mətni üzərində işə başlamaq üçün qruplar yaratmaq barədə razılıq əldə olundu. Və əvvəlki dörd Brüssel görüşündə olduğu kimi, beşinci Brüssel görüşündə də Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır.

Üçtərəfli görüşdən sonra Şarl Mişelin verdiyi bəyanata nəzər yetirdikdə aydın görünür ki, Avropa İttifaqı ilk növbədə regionda sülhün tezliklə bərqərar olmasında çox maraqlıdır. Kommunikasiyaların açılması, nəqliyyat-tranzit məsələlərinin həllini tapması Cənubi Qafqazın inkişafı ilə yanaşı, regionda sabitliyi daha da möhkəmləndirəcək. Ona görə də Avropanın siyasi mərkəzi olan Brüssel görüşləri sülh prosesinə töhfə kimi dəyərləndirilir.

Beləliklə, Avropa İttifaqı Şurasının və şəxsən prezident Şarl Mişelin bu prosesdə rolu Azərbaycanın bütövlükdə bölgənin gələcəyinə təminat verən milli maraqlarına uyğundur və bu mənada Brüssel prosesinin davamında uğurlu yekun sülh sazişinə ümid etmək olar. Çünki artıq ermənilər də dərk edirlər ki, nəinki Qarabağda və Azərbaycanın sərhədləri daxilində, hətta Cənubi Qafqazda baş verən proseslər də qalib ölkənin maraqlarına uyğun şəkildə həyata keçirilir. Regionda baş verən bütün proseslərin hərəkətverici qüvvəsi rolunda Azərbaycan iştirak edir. Və Azərbaycanın Zəngəzur dəhlizinin açılması istiqamətindəki israrı da reallaşacaq. Bununla da Cənubi Qafqazın nəqliyyat-logistika imkanları daha da genişlənəcək. Yeni imkanların yaranması ilk növbədə Ermənistanın düşdüyü acınacaqlı durumdan xilası ola bilər və bu gün ordusu olmayan Ermənistan Azərbaycan üçün təhlükə mənbəyi ola bilməz, olduğu halda onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. Dövlət başçımızın söylədiyi kimi: ”Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər. Heç kim bizi dayandıra bilmədi”.

Bir sözlə, bu gün Azərbaycanın Ermənistvnv sülh təklifi, dövlət başçımızın dediyi kimi: ”Azərbaycan ilə Ermənistan arasında sülh anlaşmasının imzalanması qaçılmazdır”.

***RƏFİQƏ KAMALQIZI***

# Lavrovun hədəsi fonunda

## ERMƏNİSTANIN QORXU KOMPLEKSİ



Hər bir bəyanatı, hər bir ifadəni Ermənistan cəmiyyəti özünə qarşı təhdid, yaxud da hədə hesab etməkdə davan edir. Məhz Rusiya tərəfini təhdid edən tərəf olaraq qiymətləndirmələrindən sonra, erməni cəmiyyəti Moskvanın vasitəçiliyi ilə Nikol Paşinyanın razılaşmasına biganə qala bilmir. Erməni baş naziri elə erməni cəmiyyəti tərəfindən həm qorxaqlıqda, həm bacarıqsızlıqda, həm də xəyanətkarlıqda ittiham olunur. Məsələ burasındadır ki, ermənilərin hər birinin qorxu keçirdiyi dərhal hiss olunur və Rusiya tərəfinin tələblərlə çıxış etdiyi qənaətində olan ermənilərin qorxu içərisində olduqları özlərinə məxsus qorxu kompleksinin təzahürü kimi diqqətdən yayınmır.

Ermənistan cəmiyyəti məhz Rusiya hakimiyyətinin İrəvana qarşı tələblərlə çıxış etdiyini, bu tələblərin davam etdiyini iddia edir və bu cəmiyyətin keçirdiyi böyük təlaş artıq açıq-aşkar şəkildə özünü biruzə verir. Haylara görə Moskv İrəvandan daha böyük loyallıq və güzəştlər təəb edir. Ermənilər hesab edirlər ki, onların xarici siyasətlərini şaxələndirməyə ruslar imkan vermirlər. İddia edirlər ki, Rusiyanın qucağından xilas olmaq üçün səylərinin mənasız olduğu üzə çıxır. Üstəlik, haylar hətta hesab edirlər ki, Ermənistan hakimiyyətini Rusiya açıq şəkildə hədələyir və əməlli-başlı qorxudur.

Bu gün ermənilər rəsmi İrəvanın Qərb yönümlü siyasətini rusların bəyənmədiyini yaxşı bilirlər və buna görə də hesab edirlər ki, Moskva İrəvanın istənilən hərəkətində "xəyanət" görür. Əslində, ruslar bu mənada tamamilə haqlıdırlar, çünki xəyanətkarlıq erməni xislətinə məxsus olandır və onların hərəkətlərində xəyanət axtarmaq tam məntiqidir. Eyni zamanda Rusiya axı dəfələrlə Ermənistanın xəyanətkarlığının şahidi də olub və indi belə bir qənaətdə olmalarında, onların hərəkətində xəyanət görmələrində qeyri-adi nə var? Rusiya xarici işlər naziri Sergey Lavrovun "Sarqrad" telekanalına verdiyi son müsahibəsi isə ermənilərin kürkünə birə salıb. Ona görə ki, o ermənilərin, eləcə də amerikalıların Rusiyanı bölgədən qovmaq arzusunda, niyyətində olduğunu deyib. "Mən bilirəm ki, məsələn, onlar ermənilərə siqnal verirlər ki, rusları, onların sərhədçilərini öz ərazilərindən qovsunlar... Hərbi bazanı çıxarsınlar. Əvəzində də onların təhlükəsiz qalmasına kömək ediləcəyinə söz verilir, hansıki bu, açıq təxribatdır", deyə Lavrovun ABŞ-ın rusları qovmaq barədə Ermənistana çağırış etdiyini təxribat adlandırması ermənilərin yuxusunu ərşə çəkib.

Lavrovun bu ifadələrini ermənilər, axmaqlıqla edilmiş açıq kobudluq kimi qiymətləndirirlər. Onlar iddia edirlər ki, guya Vaşinqtonun ermənilərə heç bir siqnal göndərməsinə ehtiyac belə yoxdur. Bir sözlə, haylar bəyan edirlər ki, guya Ermənistan cəmiyyətinin özündə də böyük əksəriyyət Rusiyanın bu işğalçı ölkə ərazisindəki hərbi mövcudluğuna son qoymaq arzusundadır. Sual oluna bilər ki, bəs o zaman nə etmək niyyətindədirlər ermənilər? Bəlkə Rusiyanın hərbi bazasının əvəzinə ABŞ-ın bazasını yerləşdirmək istəyirlər? Əslində, bəlkə yox, bu elə belədir və ruslar da bunu çox yaxşı bilirlər deyə onlara lazımi mesajlar verirlər. Hər halda Lavrov boş yerə belə danışmazdı. Həm də onun danışdıqları erməniləri bu qədər qıcıqlandırmazdı, əgər məsələ elə onun dediyi kimi olmasaydı.

Onsuz da İrəvana yollanan və ya oradan çıxıb gedən hər bir erməninin sənədlərinin Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti tərəfindən yoxlanılması hayların bu vaxta qədər həzm edə bilmədiklərindən, narahat olduqları məsələlərdən sayılır, hansı ki, bunu özləri etiraf edirlər. Etraf edirlər ki, hərhansı bir erməni İrəvana gələrkən ilk gördüyü pasport nəzarətində olan rus sərhədçisidir. Zvartnots aeroportunda rus sərhədçilərinə ermənilərin pasportlarını yoxlamaq icazəsini əvvəlki korrupsioner hakimiyyətin icazə verməsini erməni cəmiyyəti böyük səhv hesab edir və bir növ, asılı vəziyyətlərinə görə də kompleksdə oluqları da duyulur. Bir çoxları bunu hətta erməni xalqının əbədi olaraq alçaldılması hesab edir. Əslində, bu fakt özü yetərlidir ki, Ermənistanın hələ də suveren ölkə olmadığı qənaətinə gəlinsin. Bir tərəfdən də Rusiyanın bu işğalçı ölkədə hərbi mövcudluğu məsələnin nə yerdə olduğunu dərk etməyə əsas verir və ermənilərin qorxu kompleksi də bu baxımdan heç də təsadüfi deyil.

Rusiya artıq Ermənistana zərrə qədər də etibar etmir və bu o deməkdir ki, rəsmi İrəvanın atdığı hər bir addım ruslar tərəfindən izlənilir. Qərb Qafqazda mövcudluğu üçün Ermənistandan istifadə etmək niyyətindədir. Belə bir məqamda ermənilər alət hesab olunur. Özləri də bunu bilirlər. Sadəcə olaraq, indi Ukrayna ilə Rusiya arasında müharibə fonunda ermənilər ruslardan çox amerikalıların himayəsi altına sığınmağı üstün hesab edilər. Daha dəqiq desək, ermənilər indi Rusiyanın gücünün zəiflədiyini düşünürlər deyə daha güclü himayədar, daha etibarlı ağa axtarışındadırlar. Belə bir himayədar tapdıqarı, yaxud tapacaqları müzakirə mövzusu deyil, amma hayların bu addımı, daha doğrusu hiyləgərliklə etdikləri xəyanət rusların diqqətindən yayınmırsa, bu artıq onlar üçün çox ciddi müzakirə mövzusu sayılır. Bax elə qorxu da buna görədir.

Doğrudur, erməni xisləti üçün hansısa dövlətin sığınacağına qısılmaq ənənəvi haldır və onlar buna tarixən öyrəncəlidirlər. Eyni zamanda onlar uzun müddət sığındıqları dövlətə, həmin dövlət zəiflədiyi zamanda xəyanət etməyə, həmin dövləti qarşı tərəfə satmağa da alışqandırlar. Tarixi faktlar bunu sübut edir. Məsələ burasındadır ki, həmin bu tarixi faktları bilən ruslar, son zamanlar bu faktla özləri də rastlaşmalı oldular və hər bir ermənininin iç üzünü onlar artıq çox yaxşı bilirlər. Rusların hesabına məskunlaşdıqları torpaqlarda Rusiyanın hərbi mövcudluğuna son qoymaq, amerikalıların yanaşma tərzi ilə desək, onları qovmaq arzuları da Moskva üçün sirr deyil. Bu baxımdan Rusiyanın xarici işlər naziri Sergey Lavrovun dedikləri tam anlaşılandır. Haylar bunu lap yaxşı başa düşürlər. Başa düşürlər ki, Kreml məsələni ciddi şəkildə nəzarətdə saxlayır və niyyətləri onlara baha başa gələ bilər. Elə buna görə də ermənilərin qorxu kompleksinin məhz nədən əmələ gəldiyi heç də təəccüblü deyil.

Qafqazda necə peyda olduqlarını, rusların hesabına mövcudluqlarını qoruyub saxladıqlarını, hətta dövlət belə qurduqlarını haylar özləri hamıdan yaxşı bilirlər. Onu da bilirlər ki, məhz ruslara güvənərək Azərbaycan ərazilərini işğal edərək 30 ilə yaxın işğal altında saxladılar. Həyasızlıqları o həddə çatdı ki, Azərbaycan ərazilərində ikinci erməni dövləti qurmaq həvəsinə də düşdülər, hansı ki, bu məsələdə də ruslara güvəndilər. Axı öyrənmişdilər bizə məxsus ərazilərdə rusların hesabına dövlət qurmağa və bu dəfə də ümid edirdilər ki, ikinci bir dövlət qurmaq istəyinə düşəndə ruslar onlara kömək edəcək. Amma belə olmadığını görəndə çaş-baş qaldılar. Torpaqlarımızı işğaldan azad etdiyimiz zaman isə Moskvadan kömək umsalar da köməklərinə çatan olmadı, işğal altında saxladıqları torpaqları qoyub qaçmalı oldular və tamamilə ümidsizliyə qapandılar, rusların ətəyindən də əllərini üzdülər. Son ümidləri isə rus sülhməramlılarına güvəndikləri zaman tükəndi və gördülər ki, Azərbaycanın yaratdığı reallıqlarla digər dünya dövlətləri kimi, Rusiya da barışıb və onlara heç sülhməramlı kontingent də kömək edə bilmir. Bu zaman da çıxış yolunu Qərbdə gördülər, indi də Qərbin ayaqları altına yıxıldılar, amma bilirlər ki, Kreml bunu onlara bağışlamayacaq və gec ya tez bunun hesabını verməli olacaqlar. Belə olan halda niyə, nəyə görə qorxu kompleksi yarandığı bəlli olur.

Rusiya onilliklər boyu Qafqazda mövcudluğunu qoruyub və bunun üçün haylar alət edilsə də, onlara müəyyən imtiyazlar, dividentlər də verilib. Özləri də yaxşı bilirlər ki, rusların onlara bağışladığı nəyə görədir və bundan da sui istifadə etməkdə davam etdilər. Yəni, Rusiyaya lazım olduğu zaman bölgədə qarışıqlıq salmaq kimi tapşırıq aldılar və hiyləgərcəsinə bu tapşırıqdan da öz maraqları naminə istidadə etməyə başladılar. Sözsüz ki, erməniləri ruslar əbədi olaraq himayəyə götürə bilməzdilər. Bəli, ola bilsin ki, hələ də müəyyən güzəştlər ola bilərdi, amma artıq xəyanətlarlıqları fonunda bunun mümkünsüzlüyü ortaya çıxdı. İrəvan Moskvanın dəstəyindən məhrum olduğunu hiss etdiyi zaman "ağa" axtarışına çıxdı, amma bu ruslara xoş təsir bağışlaya bilməzdi. Ələlxüsus ermənilərin onları Qərbə satması rusların həzm edə biləcəyi bir şey deyil. Eyni zamanda ruslar amerikalılara Qafqazı "hədiyyə" verməzlər də. Bu məsələdə "güzəşt" ola bilməz və ermənilər özbaşına deyillər ki, onlara hədiyyə olunan ərazilərə amerikalıları dəvət edib, rusları qovmaq fikrinə düşsünlər. Ona görə də ermənilər bilirlər ki, nə zamansa buna görə, belə bir fikrə düşdükləri üçün ruslar hesabat istəyəcəklər və belə bir hesabat onlar üçün çox ağır nəticələr, hətta faciə deməkdir. Lavrovun dediklərindən nəticə çıxarmaq istəyən ermənilər ona görə bunu təhdid adlandırdılar və qorxuya düşdülər. Bəzi erməni politoloqların özlərinin fikrincə, Rusiyanın belə bir mövqeyi fonunda ermənilər dövlətdən belə məhrum ola bilərlər, Ermənistan dövləti tarixin arxivinə belə yazıla bilər. Elə bu baxımdan da qorxuları, hayların qorxu kompleksi başadüşüləndir.

***İnam Hacıyev***

## Estoniyalı deputat: "Zəngilanda bərpa və yenidənqurma işləri sürətlə həyata keçirilir"



Zəngilanda qısa zamanda - iki il ərzində tikilən aeroport və salınan "ağıllı" kənd valehedicidir. Azərbaycanın Zəngilanla bağlı çox böyük planları var. Bu sözləri AZƏRTAC-a müsahibəsində Estoniya parlamentinin üzvü Ester Karuse deyib.

Zəngilan şəhərində bərpa və yenidənqurma işlərinin sürətlə həyata keçirildiyini vurğulayan deputat deyib: "Mən iki il sonra buraya qayıdıb indi aparılan işlərin nəticələrini görmək istərdim. İnanıram ki, burada həyat yenidən canlanacaq, şəhər möhtəşəm görünüşə malik olacaq".

## "Azərbaycan Litvanın ən yaxın tərəfdaşlarından biridir"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Litvaya rəsmi səfəri iki ölkə arasında yeni münasibətlərin inkişafında önəmli addımlardan biridir. Prezidentin Litvaya sayca 4-cü səfəri çərçivəsində keçirdiyi görüşlər, bir sıra mühüm sənədlərin imzalanması və biznes forumun təşkil olunması əlaqələrimizin daha da genişlənməsindən xəbər verir. Azərbaycanla Litva arasındakı əlaqələrin tarixi kökləri var. Litva 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan-Litva münasibətlərinin genişlənməsi ilə bağlı gördüyü möhtəşəm işlər sayəsində bu gün ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq həddinə çatıb". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat qeyd edib ki, 44 günlük Vətən müharibəsindən sonra bölgədə və ölkəmizdə yaranmış yeni reallıqlar fonunda Prezident İlham Əliyevin Litvaya səfəri qarşılıqlı maraqlara, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə əsaslanır: "Bu da strateji tərəfdaşlıq münasibətlərinin getdikcə inkişaf etməsi üçün yeni imkanların açılması deməkdir. Azərbaycan Prezidenti mətbuata açıqlamasında da dediyi kimi, görüşdə regional məsələlərlə də bağlı geniş fikir mübadiləsi aparıldı. Litva Prezidenti Azərbaycan-Ermənistan sülh danışıqları haqqında məlumatlandırılıb. İlham Əliyev çıxışında Azərbaycan torpaqlarının uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında olduğunu bir daha xatırladıb və bir milyon azərbaycanlının erməni təcavüzü nəticəsində öz doğma torpaqlarından didərgin düşdüyünü, ərazilərimizin təxminən 20 faizinin işğal altında qaldığını bildirib".

A.Hüseynov bildirib ki, son illər Azərbaycanın dünya miqyasında nüfuzu artmaqda, beynəlxalq əlaqələri genişlənməkdədir: "Prezidentimizin müxtəlif ölkələrə səfərləri və ayrı-ayrı dövlətlərin başçılarının Azərbaycana səfərləri bunun bariz nümunəsidir. Səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsi, mühüm sənədlərin imzalanması və mətbuata görüşlərin nəticələri barədə bəyanatların verilməsisəfərin məhsuldar keçdiyinə dəlalət edir. İki ölkə arasında indiyədək 50-dək sənəd imzalanıb ki, bunların da içərisində 2007-ci ildə Vilnüsdə imzalanmış "Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannamə" xüsusi yer tutur. Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində çox önəmli ölkədir. Həmçinin bütün İttifaq üçün strateji enerji tərəfdaşıdır. Litva isə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının təşviqinə fəal töhfə verən ölkələrdəndir. Azərbaycan Litvanın ən yaxın tərəfdaşlarından biridir".

***Səbinə Hüseynli***

# Tarixi irsimiz və nailiyyətlərimiz dünyanın diqqətində

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi olaraq meydana çıxmışdır. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin böyük xidmətləri olmuşdur. AXC yarandığı zamandan xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Belə ki, həm xaricdən, həm də daxildən daşnak ermənilər, həmçinin, menşevik qüvvələr Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına mane olurdular. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, Ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub.









### ”BİZ BU GÜN DEMOKRATİK AZƏRBAYCAN DÖVLƏTİNİ QURURUQSA, AYAĞA QALDIRIRIQSA, XALQ CÜMHURİYYƏTİNƏ BORCLUYUQ”

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu. Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

### AZƏRBAYCAN XALQI ÜÇÜNCÜ İLDİR Kİ, 28 MAY - MÜSTƏQİLLİK GÜNÜNÜ QALİB XALQ KİMİ QARŞILAYIR

Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini davam etdirən Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycan iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəyə çevrilib, regional problemlərin həllində əsas söz sahibidir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində 30 ildən sonra Azərbaycan 44 günlük müharibədə Qələbə qazandı, işğalçı Ermənistanı kapitulyasiyaya məcbur etdi. Azərbaycan xalqı üçüncü ildir ki, 28 May - Müstəqillik Gününü qalib xalq kimi qarşılayır. Bu əziz bayram erməni işğalından azad edilən torpaqlarımızda da qeyd olunur. Üçrəngli bayrağımız işğaldan azad edilmiş ərazilərimizdə qürurla dalğalanır.

### ”AZƏRBAYCANLA BİRLƏŞMİŞ ŞTATLAR ARASINDAKI TƏRƏFDAŞLIQ REGİONDA İNKİŞAFI TƏMİN EDİB”

Dünyada söz və nüfuz sahibi olan müstəqil Azərbaycanın Prezidenti İlham Əliyevə Müstəqllik Günü münasibəti ilə dünya ölkələrinin prezidentləri, siyasi xadimləri tərəfindən təbriklər gəlir. Onların hər birində 28 May - Müstəqillik Günü münasibətilə təbriklərlə yanaşı, dövlətimizin dünya birliyində layiqli yer tutması, dövlətlərarası münasibətlərin etibarlı əməkdaşlıq səviyyəsinə yüksəlməsi diqqətə çəkilir. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Bayden ünvanladığı təbrikində belə yazır: ”Amerika xalqı adından Sizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə təbrik edirəm. Azərbaycanla Birləşmiş Ştatlar arasındakı tərəfdaşlıq regionda inkişafı təmin edib. Biz birlikdə terrorizmlə mübarizə aparır, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı tədbirlər görür və kütləvi qırğın silahlarının yayılmasının qarşısını alırıq  Birləşmiş Ştatlar Cənubi Qafqazda gələcək nəsillər üçün təhlükəsizlik və inkişafı təşviq edəcək, Azərbaycanla Ermənistan arasında dayanıqlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəkdir. Qarşıdan gələn ildə təhlükəsizlik və iqtisadi əməkdaşlığımızın dərinləşdirilməsi də daxil olmaqla, tərəfdaşlığımızı daha da gücləndirməyi həvəslə gözləyirəm”.

### MÜASİRLƏŞƏN CƏMİYYƏTİN DİNC VƏ SABİT MÜHİTƏ EHTİYACI VAR

Sevincli və firavan Müstəqillik Günü ərəfəsində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin dövlət başçımıza ünvanladığı təbrikində Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti və Azərbaycan xalqını ürəkdən təbrik etdiyi qeyd olunur: ”Bu ilin fevral və mart aylarında Almaniyaya səfərləriniz ölkələrimiz arasında sıx dostluq münasibətlərini daha da gücləndirdi. Almaniya, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətlərini dəstəkləyir”. Almaniyanın bundan sonra da Azərbaycanın modernləşmə səylərində, demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsində etibarlı tərəfdaş olacağını qeyd edən Frank-Valter Ştaynmayer çiçəklənən, müasirləşən cəmiyyətin dinc və sabit mühitə ehtiyacı olduğunu vurğulayır: ”Buna görə də mən qəti şəkildə əminəm ki, Azərbaycan, eləcə də bütün bölgə regional münaqişələrin həllindən faydalanacaqdır. Biz Avropa İttifaqının üzvü kimi buna fəal töhfə vermək istəyirik. Sizə və Azərbaycan xalqına ən xoş arzularımı ifadə edir, sülh, rifah və firavan gələcək diləyirəm”.

Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlz Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərini çatdırıb: ”Mən çətinliklərin yaşandığı indiki dövrdə ölkələrimiz arasında mehriban dostluğun və güclü tərəfdaşlığın davam edəcəyinə ümidvar olduğumu bildirmək istərdim”. Ünvanlanan təbriklərin hər birində səmimi hisslər ifalə olunub. Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitodan, İndoneziya Respublikasının Prezidenti Coko Vidododan, Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd vələd əş-Şeyx əl-Ğəzvanidən, Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesdən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanan təbriklərdə Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi ifadələr yer alır. Xalqlar arasındakı mövcud dostluq əlaqələri daim inkişaf edərək beynəlxalq aləmdə, regionda sülhün və firavanlığın təşviqinə töhfə verir. Belə bir nüfuza sahib dost Azərbaycan xalqına ünvanlanan təbriklərdə daha çox tərəqqi və firavanlıq arzulayırlar. Dost xalqların mənafeyi naminə ölkələr arasında mövcud əməkdaşlıq əlaqələrini gücləndirmək və inkişaf etdirmək üçün səylərimizi davam etdirməkdə maraqlı olduqları ifadə olunur. Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ölkəmizin milli bayramı - Müstəqillik Günü münasibətilə Əlcəzair xalqının, hökumətinin adından və şəxsən öz adından ən səmimi təbriklərini çatdırıb: ”Ölkənizin tarixində bu əlamətdar hadisənin qeyd edilməsi, Qoşulmama Hərəkatının hazırkı sədri olaraq 2022-ci ilin noyabr ayında Əlcəzairin ev sahibliyi etdiyi Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında fəxri qonaq qismində dəyərli iştirakınız mənə dostluq və əməkdaşlıq münasibətlərimizin dinamizmindən dərin məmnunluğumu ifadə etmək imkanı verir. Ölkələrimizin ümumi maraqları və qardaş xalqlarımızın istəklərinə xidmət edən əlaqələrimizi möhkəmləndirmək və inkişaf etdirmək məqsədilə Sizinlə əməkdaşlığımızı, həmçinin ümumi maraq kəsb edən məsələlər və dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirə biləcək beynəlxalq forumlarda məsləhətləşmələrimizi davam etdirməyə hazır olduğumu bir daha qeyd etmək istərdim”.

AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur. Göründüyü kimi, bu uğurlarımız və tarixi irsimiz, nailiyyətlərimiz dünyanın diqqətindən kənarda qalmır.

***Nəzakət ƏLƏDDİNQIZI***

**Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində söyləyib ki, İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə.**

Dövlətimizin başçısı deyib ki, bu, qəhrəmanlıq dastanıdır, bu, misli görünməmiş qəhrəmanlıqdır: "İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi".

Bəli, İkinci Qarabağ müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Atıq qələbəmizin ikinci ilini də böyük uğurla başa vururuq. Böyük qürur hissi keçiririk ki, bu qələbə və uğurlar Azərbaycan Prezidenti, Ali baş Komandan İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayişi idi. Bu, həmdə bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz! Çünki

### BİZİM ORDUMUZ ÖZ GÜCÜNÜ PARADDA YOX, DÖYÜŞ MEYDANINDA DA GÖSTƏRİB

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində onu da bildirib ki, Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən: "Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır".

Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışlarında da dəfələrlə bildirmişdir ki, bu qələbə zamanında ordu sahəsində görülən işlərin nəticəsidir: "Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır. Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik".

Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, biz cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq: "Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq".

### BİZ NƏ DEMİŞİKSƏ, HƏR BİR SÖZÜMÜZ HƏYATDA ÖZ ƏKSİNİ TAPIB

Bəli, sözü imzası qədər güclü olan lider, Ali Baş Komandan Prezident İlham Əliyev 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini bildiyi üçün "Güclü ordu - güclü dövlət" strategiyasının və "dəmir yumruq" siyasətinin nəticəsində bu qələbə qazanıldı. Çünki dövlət başçımız iqtisadi sahədə əldə etdiyimiz gücü Ordumuzun müasir texnologiyalarla təchiz edilməsinə və peşəkarlığının artırılmasına yönəltdi. Hərbçilərin mənzil-məişət şəraiti yaxşılaşdırıldı, hərbçilərimiz beynəlxalq təlimlərə qatıldılar. Son 19 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. Və bunu da etdi. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil.




# Qətiyyətli Lider və Müzəffər Ordu-yenilməz Xalq birliyi!

## İLHAM ƏLİYEV: "İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan da məhz bu idi"

Bəli, Prezident İlham Əliyevin nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi siyasətin nəticəsi budur. Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Göründüyü kimi, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Bir sözlə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində də bildirib ki, biz nə demişiksə, hər bir sözümüz həyatda öz əksini tapıb: "Həyat onu göstərir ki, biz nə demişiksə, hər bir sözümüz həyatda öz əksini tapıb".

### QARABAĞIN VƏ ZƏNGƏZURUN BƏRPASI MİSSİYASINI DA UĞURLA İCRA EDƏCƏYİK

"Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik". Bu barədə Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirib.

"Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik", - deyə dövlətimizin başçısı əlavə edib.

Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində onu da söylədi ki, ulu öndər Heydər Əliyevin arzusu Qarabağı azad görmək idi: "Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

### Budur, dünyasəviyyəli, cəsarətli LİDER! Budur, xalqın Prezidenti olmaq!

Budur sözü imzası qədər dəyərli olan Lider. Və Ermənistanın alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!: "Heç kim bizi dayandıra bilməz!. Yüz minlik ordunu kim dayandıra bilər?... Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".

Çünki bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar. Çünki bu gün regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranıb, ərazi bütövlüyümüz təmin olunub və heç bir statusdan söhbət gedə bilməz! Bu isə Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur.

Bütün bu söylənilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, "Nə qədər mən Prezidentəm, heç bir statusdan söhbət gedə bilməz!" deyən dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə zaman etməyi yaxşı bildiyini bir daha nümayiş etdirdi. Və bu gün...

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SON 20 İLDƏ ÜMUMMİLLİ LİDERİN İDEYALARININ İŞIĞINDA BÖYÜK İNKİŞAF YOLU KEÇİB

20 il öncə Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" cümlələri sadəcə, Ulu Öndərin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi Liderin uzaqgörənliyi də aydın sezilir. Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 20 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur. Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl, uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda, bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanın yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə cəzalandırdı.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində söylədiyi kimi: "Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Bir sözlə, bütün bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük Sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır.

***RƏFİQƏ KAMALQIZI***

# Qızqaçırma:

## ADƏT, YOXSA CİNAYƏT?

***Hər ölkənin və bölgənin özünəməxsus ənənələri var. Bəziləri çox maraqlı səslənə bilər, çünki biz buna öyrəşməmişik. Bu maraqlı nümunələrdən biri də Qırğızıstandakı qız qaçırma ənənəsidir. Əslində, qızqaçırma deyilən ənənə indi o qədər edilməsə belə, bir vaxtlar Azərbaycanda da məşhur idi. Bəs, gəlin görək dünya ilə bizim qızqaçırma arasında hansı fərqlər var? Ümumiyyətlə, bu düzgün addımdırmı? Qız qaçıran şəxsləri hansı cəzalar gözləyir? Bu adət, yoxsa cinayət əməlidir?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.





Bu maraqlı ənənəni başa düşmək üçün Qırğızıstanın paytaxtı Bişkekə gedən adam qaçırma ənənəsini izah edib. Belə ki, qız qaçırma Qırğızıstanda illərdir davam edən evlilik üsuludur. Bu ənənə oğlanın evlənmə qərarı verdikdən sonra bir neçə dostu ilə bir araya gələrək qızı küçənin ortasında yaxalayıb qaçırması ilə başlayır. Onlar qızı qaçırdıqları kimi ailəsinin yanına gətirir və oğlanın qohumları qızı bu evliliyə razı salmağa çalışırlar.



Müsahibələrdə çoxları bu üsulla evləndiklərini deyirlər. Gəlinləri evə gətirmək və onları inandırmaq üçün lazım olan vaxt isə tam bir fəlakətdir. Qız qaçırma qanunsuz olsa da, Qırğızıstan polisinin əksəriyyəti bunun qeyri-qanuni olduğunu bilmir və bu məsələ həll olunmur. Lakin qadınlar bu ənənədən razı deyillər.

Tutaq ki, bir-birini sevən cütlük var. Belə olan halda da yenə oğlan qızı qaçırır. Lakin bu qızlar tərəfindən təhqir kimi göründüyü üçün bu ənənəni sevmirlər. Əsas məqsəd ailə qurmaq olsa da, bu ənənədən darmadağın olan ailələr də var.

Azərbaycanda qız qaçırma adəti çox məşhur olub. Bu ya ailələr izdivaca razı olmadıqda, ya da qız özü oğlanı sevmir və ona ərə getmək istəmir deyə baş tutur. Lakin Azərbaycan qanunvericiliyinə görə qız qaçırma adam oğurluğu hesab edilir və bu ənənə bu gün də qalmaqdadır.

Ölkəmizdə bəzi regionlardakı adət-ənənəyə görə qızı zorla qaçırılan ailə milli mentaliteti nəzərə alaraq hüquq-mühafizə orqanlarına şikayət etməz. Sadəcə, qızı qaçırılan ata-ana bir neçə gün bu olaya sərt münasibət göstərər, el ağsaqqallarının məsələyə müdaxiləsindən sonra ara sakitləşər. Amma elə bölgələr də var ki, orada qız qaçırılmasına sərt münasibət var və belə hadisə hətta düşmənçiliyə, adam öldürülməsinə səbəb ola bilir.

Araşdırmalar göstərir ki, keçmişdə çox vaxt qızın ailəsinin oğlan evindən tələb etdiyi yüksək məbləğdə "başlıq pulu"nun ödənməməsi üzündən qız qaçırmaya əl atılırdı. İndi isə ya qızın ata-anası razı olmayanda, ya da onun özü oğlanı istəməyəndə qaçırılma yoluna əl atırlar.

Araşdırmalar göstərir ki, qız qaçırma məsələsi Azərbaycan millətinin milli-mənəvi xüsusiyyətidir. Müsbət cəhətləri ilə "qaçırma" sözü rus və ya digər dillərə tərcümədə "qız oğurlama" kimi başa düşülür. Bu "oğurluq" sözü hərfi tərcümədə cinayət kimi səslənir. Yəni soyğunçuluğun oğurluq olduğu düşünüldüyündən bu mövzuda cinayət törətmiş kimi əsas qanunda əksini tapıb.



Bəs, "qız qaçırma" adəti nədən qaynaqlanır? Ömrü at belində keçən "tərəkəmə" azərbaycanlılar başqa dəstələrin qızlarına aşiq olanda oğlanlarla qızlar öz aralarında sevgi məsələsini həll edirdilər. Ağsaqqalların - ata-ana, baba-babanın buna razı olmadıqlarını gördükdə isə qızı qaçırıb gözdən itirdilər. Əksər hallarda qız qaçırmadan bir müddət sonra ailələr arasında barışıq əldə olunur. Kəndin qocaları tərəfindən qızın ailəsi razı salınır və toy edilir.

Bildiyimiz kimi, ötən gün Tovuzda 13 yaşlı qızı qaçırmaqda şübhəli bilinən S.Kavazov barəsində cinayət işi açılıb. Zaman-zaman mətbuatda azyaşlıların evlənmək məqsədilə qaçması və ya qaçırılması barədə məlumatlarla qarşılaşırıq.

### Bəs, yetkinlik yaşına çatmayan şəxsin qaçırılması qanunvericiliklə hansı məsuliyyətə səbəb olur?

Vəkil Turan Abdullazadə deyib ki, Azərbaycan Resublikasının Cinayət Məcəlləsinə əsasən adam oğurluğu beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır: "Həmin əməllər yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə və ya ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - on ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Lakin qanunda belə bir istisna da var ki, əməllərində başqa cinayətin tərkibi olmayan və oğurlanmış adamı könüllü azad edən şəxs cinayət məsuliyyətindən azad olunur. Habelə burada müəyyən etmək lazımdır ki, qaçırılması iddia edilən şəxs həqiqətən qaçırılıb, yoxsa öz razılığı və azad iradəsi ilə həmin şəxslə birlikdə gedib. Vətəndaşlar bilməlidir ki, qızla ailə qurmaq məqsədilə onun qaçırılması, yəni el arasındakı adı ilə "qızqaçırtma" əgər qadının könüllü razılığı olmadan və onun iradəsi ziddinə baş verirsə, bu, adam oğurluğu cinayəti sayılır və qız qaçıran şəxsi ağır cəzalar gözləyir.

Bəzən belə də olur ki, qız əvvəlcə öz istəyi ilə qaçır. Lakin sonradan istintaq orqanında ifadə zamanı obyektiv və subyektiv səbəblərdən - məsələn, atasının və qohumlarının basqısından dolayı zorla qaçırıldığını bildirir. Bu zaman qızı qaçıran oğlan olduqca pis vəziyyətdə qalır və əlində qızın könüllü qaçdığına dair sübut yoxdursa, həmin qaçıran şəxsi çox çətin günlər gözləyir. Yəni qızın qaçmağa razılıq verməsi hələ qızın fikrini dəyişməyəcəyi anlamına gəlmir. Amma Tovuzda baş vermiş olay bir az fərqlidir. Belə ki, qızın cəmi 13 yaşı var. Heç bir səbəb 13 yaşlı qızın 40 yaşlı şəxs tərəfindən aparılmasına, təşviq edərək yanına çağırmasına əsas ola bilməz. Ailə Məcəlləsində nikah yaşı 18 yaş qeyd olunub. Qızı qaçırmaqda şübhəli bilinən Xudat şəhər sakini Səfər Kavazovun isə 40-dan çox yaşı var və ailəlidir. Üç övladı olan S.Kavazov Xudat şəhər xəstəxanasında mühafizəçi kimi çalışır. Yəni, burada əsaslı şübhələr var və hüquq mühafizə orqanları tərəfindən baş verən bu hadisə çox ciddi araşdırılmalıdır".



Cinayət Məcəlləsinin 152.1-ci maddəsinə əsasən on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır: " Yəni qız oğlanla könüllü getmiş, lakin qızın 16 yaşı tamam olmamışdırsa, bu zaman da qızı könüllü qaçıran şəxsi cinayət məsuliyyəti gözləyir".

***Ayşən Vəli***

# Heydər Əliyev-100

**Ümummilli liderin Sovet dövründə öz ölkəsi, doğma xalqı qarşısında ən böyük və misilsiz xidməti o idi ki, Azərbaycan İttifaqdan ayrılanda artıq müstəqil bir dövlət kimi yaşamağa tam hazır idi**



## Sovet dövründə müstəqil Azərbaycanın əsası necə qoyuldu?

20-ci əsrin ilk yarısında Azərbaycan SSR-in sürətli sənayeləşmə və iqtisadiyyatın güclənməsi artan templə davam edirdi. Lakin Böyük Vətən Müharibəsinin vurduğu ağır zərər bütün respublikalarda olduğu kimi, Azərbaycanda öz təsirini göstərmişdi. İqtisadiyyatda texnoloji yeniliklərə, effektiv idarəetməyə ehtiyac böyük idi. 1960-cı illərdə Azərbaycan SSR-nın iqtisadiyyatı durğunluq dövrü yaşayırdı. Çıxış yolu tapmaq lazım idi, mövcud vəziyyət əsaslı dəyişiklikləri qaçılmaz edirdi. Respublikanı inkişaf etdirmək, iqtisadiyyatda dəyişikliklər, yeni idarəetmə üsulları tətbiq etmək və iqtisadi stimul lazım idi.

Həmin dövrdə iqtisadiyyatın bir çox sahələrində, istər sənayedə, istərsə də kənd təsərrüfatında mənfi meyillər peyda olmağa başlamışdı. İqtisadi inkişafın sürəti əhalinin artımını və artan tələbatı ödəmirdi, əhalinin sosial vəziyyəti çətinləşirdi. Azərbaycan istehsal həcminə, o cümlədən sənaye məhsullarının istehsalına, ümumi gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə İttifaq səviyyəsindən geri qalırdı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqi tələbə adekvat deyildi.





Respublikanın düşdüyü bu çətin vəziyyətdə Azərbaycan rəhbərliyində inqilabi dəyişiklik baş verdi. 1969-cu ildə ümummilli lider Heydər Əliyev Azərbaycan KP MK-nın 1-ci katibi seçildi. Çətin bir şəraitdə Heydər Əliyev Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək məqsədi ilə həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Respublika yavaş-yavaş dirçəliş dövrünə qədəm qoydu. Lakin bu dirçəlişin kökləri çox əvvələ dayanırdı.

### DTK-da azərbaycanlaşdırma siyasəti

Azərbaycanın hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan gənc Heydər Əliyev bütün maneələri və çətinlikləri dəf edərək dövlətin təhlükəsizliyinin əsas dayağı olan Azərbaycanın SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə qədər yüksəlmişdi.

Beləliklə, son dərəcə çətin və şərəfli bir işi- Dövlət Təhlükəsizlik Komitəsində milli kadrların çoxalmasını üzərinə götürən Heydər Əliyevi uzun və məsuliyyətli yol gözləyirdi. Respublika DTK-nın azərbaycanlaşdırılması sahəsində Heydər Əliyevin xidmətləri vətən və xalq qarşısında adi xidmətlər deyildi.

60-cı illərin sonunda Heydər Əliyevin həyatında yeni, daha geniş, çoxşaxəli və hadisələrlə zəngin bir fəaliyyət dövrü başlandı. 1969-cu ildə respublikanın ali partiya və dövlət idarəçiliyinin rəhbərliyini öz üzərinə götürən ümummilli lider Azərbaycan tarixində böyük dönüşün əsasını qoydu. Sonrakı tarixi inkişafın gedişi sübut etdi ki, hələ o dövrdə Heydər Əliyev bugünkü yeni, müstəqil Azərbaycanı qurmağa başlamışdı.

Sosialist sistemin bütün idarəetmə mexanizmini, siyasi, iqtisadi imkanlarını və xüsusiyyətlərini yaxşı bilən, idarəçilikdə zəngin təcrübə toplayan Heydər Əliyev Azərbaycanı çox ağır vəziyyətdən çıxarmaq üçün qətiyyətli addımlar atmağa başladı. O, parlaq uzaqgörənliklə respublikanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf üçün dərin düşünülmüş proqramların hazırlanmasını tapşırdı və təxirə salınmadan bu proqramların icrasına başladı.

Xalq arasında da onun böyük nüfuzu var idi. Onun əminliklə qəbul etdiyi hər qərarda Azərbaycan xalqı dəstək göstərdi, onun arxasınca getdi. Beləcə, Azərbaycan xalqının tarixində Heydər Əliyev epoxası başladı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi dünyanın ən nəhəng dövlətinin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yolunda daha da irəliyə aparmaq siyasətini həyata keçirməyə başladı.

### Sovet Azərbaycanının ən parlaq dövrü

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9, 10 və 11-ci çağırışlar) deputatı, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini (1974-1979), RSFSR Ali Sovetinin deputatı (XI çağırış, 1985), Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9, 10 və 12-ci çağırışlar) deputatı və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvü (8, 9 və 10-cu çağırışlar) oldu. Xalq ona inanır və güvənirdi.

Böyük siyasətçi əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu səviyyəsində, MK-nın plenumlarında, Kommunist Partiyasının qurultaylarında vətəni və xalqı üçün mühüm məsələlərlə bağlı əlverişli qərarların qəbul edilməsinə çalışdı. Sözünün əvvəli də, axırı da Azərbaycan olan liderin gərgin, sarsılmaz əməyi nəticəsində iqtisadiyyatın və mədəniyyətin müxtəlif sahələrində dirçəliş başladı. Onun planlarının başında Azərbaycanın özünü təmin edən, müstəqil











yaşamağa qadir və elmi-texniki baxımdan yüksək inkişaf etmiş ölkəyə çevrilməsi dayanırdı. Bir sözlə, Heydər Əliyev hələ o vaxtdan öz Vətəninin müstəqilliyinə aparan yolu inşa etməyə başladı.

Azərbaycana rəhbərlik etdiyi illərdə Heydər Əliyev minlərlə maneələri dəf edərək, mərkəzi hökumətin Azərbaycanın hərtərəfli inkişafını təmin edən 5 xüsusi qərarın qəbul edilməsinə nail oldu və eyni qətiyyətlə bu qərarların icrasını təmin etdi. O, Azərbaycanın ümumi yüksəlişi üçün əlində olan qüvvələri tam səfərbər etdi. Bunun nəticəsi olaraq 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə quruculuğun ən parlaq dövrü kimi daxil oldu. Sənayenin və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni mütərəqqi sənaye sahələri yaradıldı. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinə, elmi-texniki tərəqqinin nailiyyətlərinə, qabaqcıl texnologiyaların istehsalata tətbiqinə diqqət artırıldı, Azərbaycan bütün SSRİ-də ön sıralara çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq səviyyəyə yüksəldi.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində o dövrdə Azərbaycan Sovet İttifaqının ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikalarından birinə çevrildi. Kənd əhalisinin sosial-iqtisadi vəziyyəti kökündən yaxşılaşdı, Azərbaycanın ən ucqar kəndlərində belə inkişaf, abadlıq və mədəni quruculuq sahəsində misilsiz işlər görüldü.

## Heydər Əliyevin Sovet Azərbaycanında gənclər siyasəti

Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi dövründə təhsilin inkişafına, xüsusilə, böyük əhəmiyyət verirdi. Onun rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması respublikada böyük intellektual baza yaratdı.

Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, yeni ali və orta ixtisas məktəbləri açılmışdı. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdı.

Həmin dövrdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması idi. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdu. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdı.

Ümummilli lider Elmlər Akademiyasının genişləndirilməsi və inkişafına xüsusi fikir verirdi. Nəticədə, respublikada çox sayda elmi işçilər, böyük alimlər yetişdi. Azərbaycan Sovet Ensiklopediyasının nəşr olunması isə onun Azərbaycan elmi qarşısında ən böyük xidmətlərindən idi ki, bu gün də həmin Ensiklopediya ən qiymətli elmi xəzinə sayılır. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanda ali hərbi məktəblərin açılması isə milli hərbçi kadrların hazırlanmasında çox böyük bir iş idi. Bu məktəblərdən böyük generallar, hərbi mütəxəssislər yetişdi və onlar 1-ci Qarabağ müharibəsində Azərbaycan Ordusunun özəyini təşkil etdilər.

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Heydər Əliyevin Sovet dövründə yeni mərhələyə qədəm qoyan ölkəsi, doğma xalqı qarşısında ən böyük və misilsiz xidməti o idi ki, Azərbaycan 1991-ci ilin sonunda İttifaqdan ayrılıb müstəqilliyini elan etdiyi vaxt respublikamız artıq müstəqil bir dövlət kimi yaşamağa tam hazır idi. Bunun üçün Azərbaycan ona həmişə minnətdardır- gələcəyi öncədən görən, 70 il ittifaqa bağlı yaşayan bir ölkənin müstəqil yaşamağa hazır vəziyyətə gətirilməsi üçün var qüvvəsi ilə çalışan Böyük Öndərə...

***Lalə Mehralı***

***Yazı, Yeni Azərbaycan Partiyasının "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında elan etdiyi "Heydər Əliyev və yeni Azərbaycan" mövzusunda fərdi yazı müsabiqəsinə təqdim edilir.***

# Heydər Əliyev-100

# Vətənə sevgi, dövlətçiliyə sədaqət nümunəsi

## Xətai rayonunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş tədbir keçirilib

**"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 23-də YAP Xətai rayon təşkilatı tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş tədbir keçirilib.**



Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin adını daşıyan parka gələrək abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsinə hörmət və ehtiramlarını bildiriblər. Tədbirdə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin çox sevdiyi "Azərbaycan" şeiri ifa edilib, dahi şəxsiyyətin həyat və fəaliyyətini özündə əks etdirən film nümayiş olunub.







Çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər keçirildiyini, Ümummilli Liderin çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə geniş təhlillər aparılaraq gənc nəslə çatdırıldığını bildirib. Vurğulayıb ki, Azərbaycanın bugününü dünəni ilə müqayisə etdikdə Ümummilli Lider Heydər Əliyevin xidmətlərinin miqyası, müasir dövrümüz və gələcəyimiz üçün hazırlanmış inkişaf strategiyasının əsl mahiyyəti daha aydın görünür.

"Ulu Öndər Heydər Əliyevin əbədiyaşar, zəngin irsi Azərbaycan xalqının milli sərvətidir",- söyləyən V.Rəhimzadə qeyd edib ki, dahi şəxsiyyət xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə sədaqəti ilə örnək olan fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafını təmin edən təkmil irs, siyasi məktəb miras qoyub. O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisidir. Son 20 ilə yaxın dövrdə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev möhkəm təmələ söykənərək xalqımıza Zəfər sevincini yaşadıb.

Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev vurğulayıb ki, Heydər Əliyev Azərbaycanın bugünü və gələcəyi üçün möhkəm təməl yaradıb. Məhz bu möhkəm təməl üzərində ucalan müasir Azərbaycan davamlı uğurları ilə dünyanın diqqətindədir. Azərbaycanın dünyaya Günəş kimi doğması Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. Qısa zamanda bu istəyini reallığa çevirən dahi şəxsiyyət dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın birliyini təmin etməklə yeganə problemimiz olan Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına, erməni yalanlarının ifşasına nail oldu. Ümummilli Lider hər kəsə Vətəni sevməyi öyrətdi. Onun "Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir, Azərbaycan mənim həyatımdır" çağırışı harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlılarını bir amal ətrafında sıx birləşdirib. Məhz bu birlik 44 günlük İkinci Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Zəfərimizdə öz sözünü deyib.



YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin bildirib ki, Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyət idi. Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində respublikamız çox qısa müddətdə postsovet məkanında iqtisadi baxımdan qabaqcıl mövqelərə çıxdı. Bu gün Ümummilli Liderin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan möhtəşəm uğurlar qazanır.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, YAP Təftiş Komissiyasının üzvü Səməd Seyidov Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılmasından, Azərbaycanın dünyada söz sahibinə çevrilməsindən Bildirib ki, bu gün ən yüksək zirvələri fəth edən Azərbaycan tarixi Zəfəri ilə yaratdığı reallıqlar əsasında regionda və dünya siyasətində yeniliklərə imza atır.

Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov qeyd edib ki, Heydər Əliyevin siyasətində çoxistiqamətlilik xüsusi yer tutub. Əsas prioritetlərin düzgün müəyyənləşdirilməsi Azərbaycanın bugünkü uğurlarının əsasıdır. Dahi şəxsiyyətin müəllifi olduğu neft strategiyasının uğurlarını yaşayırıq. Neft kapitalının insan kapitalına çevrilməsi reallıqdır.

Xətai Rayon Ağsaqqallar Şurasının sədr müavini, şəhid mayor Rüfət Əsgərovun atası Mürvət Əsgərov Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycanın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində tarixinin Zəfər səhifəsini yazmasından bəhs edib. Ulu Öndər Heydər Əliyevin fotoqrafı Rafiq Bağırov Ümummilli Lider ilə bağlı xatirələrini bölüşüb.



Vətən Müharibəsi Qəhrəmanı, Yeni Azərbaycan Partiyasının sıralarına yeni daxil olan Anar Mirzəyev dahi şəxsiyyətin yaratdığı partiyada təmsil olunmağın onun üçün böyük qürur olduğunu bildirib. Xüsusi vurğulayıb ki, dünyaya səs salan tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir.





Tədbirdə Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr olunan inşa-yazı və idmanın müxtəlif növləri üzrə keçirilən müsabiqələrin qalibləri mükafatlandırılıb. YAP Xətai rayon təşkilatının həyatında səmərəli fəaliyyət göstərən bir qrup üzvə Fəxri fərman və təşəkkürnamə, partiya sıralarına yeni daxil olanlara isə üzvlük vəsiqəsi təqdim edilib. Tədbir bədii proqramla başa çatıb.

# Bizi öldürən tərəvəzlər

*Mövsümü gəlib, amma dükan-bazarda təbii çiyələk yoxdur*

**Qida zəhərlənməsi, hər kəsin başına gələ biləcək bir hadisədir - bəzən ehtiyatsızlıqdan, bəzən tamahdan. Qida zəhərlənməsi bəzən adi bir mədə yuyulması ilə yüngül bir şəkildə sovuşdurula bilən prosesdirsə, bəzən də ölümə yol aça biləcək qədər təhlükəlidir. Qida zəhərlənməsinin səbəbləri çoxdur, məhsulların gigiyenik şəraitdə saxlanmaması, tərkibində olan kimyəvi elementlər, habelə orqanizmin mənimsəyə bilmədiyi maddələrlə zəngin olması da bu səbəblərdəndir. Zəhərlənməyə səbəb olan qidaların çeşidi isə boldur.**



Daha çox yay aylarında rast gəlinən qida zəhərlənməsi özünü ishal, ürəkbulanması, qusma və mədə ağrıları ilə büruzə verir. Adətən, qida zəhərlənməsi bir neçə günə düzəlsə də, bəzi zəhərlənmə halları həddən artıq ciddi problemlərə yola aça bilər. İsti havada qida zəhərlənməsi daha çox rastlanır. Zəhərlənmələr daha çox yay aylarında, daha çox çiyələk, qarpız mövsümündə olur.

Kənd təsərrüfatı məhsullarının yetişdirilməsində ziyanvericilərlə mübarizə üçün geniş şəkildə kimyəvi dərmanlardan istifadə edilir. Torpağa bol gübrə verilir. Təkcə Qubada bir il ərzində alma ağaclarına ziyanvericilərlə mübarizə aparmaq üçün 16 dəfə zəhər vurulur. Torpağa külli miqdarda zəhərli maddələr yeridilir və bunlar yerində qalmır, meyvələrlə, tərəvəzlərlə insan orqanizminə daxil olur. Çoxlu məhsuldarlıq əldə etmək üçün külli miqdarda zəhərli maddələrdən istifadə edilir. Bunun da nəticəsi zəhərlənmələr olur.

## Çiyələklər həm rəngini, həm formasını dəyişib



İndi bütün ölkələrdə geniş şəkildə yetişdirilən çiyələk sortları Amerika mənşəlidir və meyvələri həddindən artıq böyükdür. İddia edilir ki, böyük meyvələr hormon dəyişikliyi əlaqəli deyil, toxumun mənşəyindən qaynaqlanan vəziyyətdir. Çiyələklərin həddindən böyük olmasını iqlim şəraiti ilə, bərk olmasını isə növü ilə əlaqələndirirlər. İstehlakçı bazarda normal ölçülü çiyələk tapa bilmir, ümumiyyətlə, çiyələyin rəngi də narahatlıq doğurur. Belə ki, bir zamanlar al-qırmızı rəngdə olan təbii çiyələklər indi qara-qırmızı rəngə çalır.

Kalsium və bor çatışmazlığı səbəbindən də çiyələklərdə deformasiyalar yarana bilər. Bundan başqa, ekspertlər hesab edir ki, gecə ilə gündüz arasındakı temperatur fərqi, gübrə çatışmazlığı da səbəblərdir. İddia edilir ki, bitki gecə ilə gündüz arasındakı temperatur fərqi səbəbindən stress altındadır.

## Daş kimi pomidorlar

Bakı bazarlarında satılan pomidorların zərərli olması, insan səhhətinə mənfi təsir edən dərmanla yetişdirilməsi ilə bağlı iddialar irəli sürülür. İddialara görə, kal pomidorun vaxtından daha tez qızarması üçün ona xüsusi dərman vurulur və bu dərman 10 günə qızarmalı olan pomidorun 1-2 günə qızarmasına səbəb olur. Həmin dərman pomidorun içinin qurumasına, mayesinin azalmasına səbəb olduğundan daha sonra pomidorun daha ətli olmasını təmin edən başqa bir dərman vurulur.

Ağır zəhərlənməyə səbəb qidalardan biri də məhz bu pomidorlardır. Mövsümündən qabaq bazara çıxarılan və müxtəlif dərmanlarla erkən yetişməsinə imkan yaradılan pomidorun həm təzəsi, həm də konservləşdirilmiş halı orqanizmi ağır formada zəhərləyə bilər. Hazırda dükan-bazarda istehlakçıya təklif edilən pomidor daş kimi bərk, dadsızdır. Mövsümündən əvvəl istehlak edilən pomidoru qəbul edərkən sirkəli suda yaxşıca yumalı, sonra isə qabıqlarını soyaraq istehlak etməlisiniz.



## Avqustdan əvvəl qarpız yeməyin



Tez yetişməsi üçün qarpıza da kimyəvi maddələr vurulur. Bu maddələr normadan artıq olduqda orqanizmdə toksinlər artır və zəhərlənmə halları yaranır. Daha çox müşahidə edilən və ən təhlükəli sayılan zəhərlənmələr də məhz qarpızla bağlıdır. Zəhərlənmələr nitratların çox olmasından qaynaqlanır.

Əhali bilməlidir ki, qarpızın tərkibində maksimum 1 kiloqramda 60 milliqram nitrat ola bilər. Ekspertlər xəbərdarlıq edir ki, sutka ərzində 200-300 milliqram nitrat qəbul edərsə, bu zəhərlənmə ilə nəticələnər. Bu o deməkdir ki, qarpızın 1 kiloqramının tərkibində 100 milliqram olarsa, həmin qarpızdan 2 kiloqram yeyən insan zəhərlənə bilər. Xüsusilə də uşaqlar, immuniteti zəif insanlara daha tez təsir edir. Ekspertlər qarpızı avqust ayında istehlak etməyin tərəfdarıdır. Daha tez bazara çıxarılan məhsul kimyəvi maddələrlə yüklənmiş, zorakı yetişdirilmiş olur ki, bu da təbii olaraq sağlamlığımızı hədələyir.

## Bu aylarda balıq təhlükəli ola bilər

İnsanı öldürə biləcək qədər güclü zəhərlənməyə səbəb olan qidalardan biri balıqdır. Xüsusilə, çiy balıq ən çox zəhərlənməyə səbəb olan qidalar sırasındadır. Bəzi ölkələrin mətbəxində çiy şəkildə qəbul edilən balığın tərkibində "scombroid" adlı maddə var. Balığı istehlak edərkən təzə olmasına və yaxşı bişməsinə əmin olmaq vacibdir. Bundan əlavə, isti yay günlərində balıqla qidalanmaya bir qədər ara vermək məsləhətdir.

Qida zəhərlənməsinin səbəbləri arasında ön sıraları tutan qidalardan biri olan ət çiy, ya da az bişmiş olduqda zəhərlənməyə səbəb ola bilir. Çiy ətin tərkibində müxtəlif cür bakteriyalar var. Onlardan bəziləri hətta qaynama temperaturunda belə məhv olmur. Kabab, dönər kimi ət qidalarından uzaq olmaq lazımdır. Yaxşı qaynadılmış əti istehlak etdikdən sonra isə ağartı məhsulları qəbul etmək vacibdir.

***Lalə Mehralı***

# Cümhuriyyət dövrünün fədakar qadınları

XX əsrin ikinci onilliyi Azərbaycan tarixində dərin izlər buraxıb. 1918-ci ilin birinci yarısında baş vermiş tarixi hadisələrdən biri faciə, insanlıq əleyhinə cinayət, soyqırımı idisə, digəri qürur və iftixar tariximiz idi. 1918-ci ildə Azərbaycan xalqı həm 31 Mart Soyqırımına məruz qalıb, həm də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətini yaradıb. 1918-ci il mayın 28-də bütün Şərq dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixində şanlı, qürur doğuran səhifələrdəndir. Çox təəssüf ki, az vaxtdan sonra - 1920-ci ilin aprelində bu respublika süqut etdi.

XX əsrin 90-cı illərinin əvvəlində Azərbaycan keçmiş SSRİ-nin dağılması nəticəsində yaranmış tarixi şansdan bəhrələnərək, yenidən öz müstəqilliyinə qovuşdu. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikanın siyasi rəhbərliyinə gələn Ümummilli Lider Heydər Əliyev cümhuriyyət ideyalarının yaşamasına və təbliğinə böyük önəm verirdi. Təsadüfi deyil ki, respublikamızda hər il Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi təntənə ilə qeyd olunur.







Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlayıblar. Qadınlarımız tarixən formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olublar. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər. Ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Ulu Öndər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi, lider qadınlar yetişdirdi. Belə ki, mövcud istiqamətdə strateji prioritetləri müəyyən etmək üçün Ulu Öndər Heydər Əliyev tərəfindən çoxlu sayda Fərman və Sərəncamlar imzalanmışdır.

## AZƏRBAYCANIN İLK QADIN PEDAQOQU

Azərbaycan Xalq Cümhuriyyəti çox gərgin bir zamanda yaransa da, bu yolda mücadilə edən insanlar heç bir hədədən, işgəncədən qoxmayaraq, mübarizəni davam etdirirdilər. Azərbaycanın bəzi fədakar qadınları da qeyri-cinsin nümayəndələri ilə bərabər çalışırdılar. Azərbaycanın ilk qadın pedaqoqu, jurnalist, tərcüməçi və ictimai xadim Mədinə xanım Qiyasbəyli də bu sırada olan mübariz qadınlarımızdan idi. Mədinə Qiyasbəyli (Vəkilova) 1889-cu ilin aprelində Qazax qəzasının Salahlı kəndində dünyaya gəlib. Atası Mehdi ağa Vəkilov yeganə qızı olan Mədinəyə mükəmməl təhsil vermək istəyirdi. Odur ki, Tiflisə aparıb "Müqəddəs Nina" qızlar məktəbinə qoyur. 1904-cü ildə Tiflisdə Müqəddəs Nina təhsil müəssisəsini bitirdikdən sonra Mədinə xanım gimnaziyada birillik əlavə kursa daxil olmağı qət edir, onun bu məqsədi atasının ürəyincə olur. Rus dili və ilahiyyat fənlərini "əla" qiymətlərlə başa vuran Mədinə xanım bu attestatla ona "ev müəlliməsi" kimi fəaliyyət göstərə bilərdi.

Aldığı təhsil ona kənddə qızlar üçün ibtidai məktəb açmaq imkanı verir. Lakin kəndin mövhumatçıları tərəfindən qızların məktəbə getməsi fikri yaxşı qarşılanmır. Belə olduqda, Mədinə xanım işə qohum ailələrdən başlayır. Beləliklə, 1906-cı ilin yanvarında Salahlıda kənd yerində İbtidai Qız Məktəbi fəaliyyətə başlamışdı. Məktəbdə türk dili, hesab, rus dili, təbiətşünaslıq fənləri ilə yanaşı, əmək və nəğmə dərsləri də keçirilirdi. O zaman türk dilini Əhməd ağa Gülməmmədov, təbiətşünaslığı-təhsilli meşəbəyi olan atası Mehdi ağa, qalan fənləri isə özü keçirdi. Məktəb tez bir zamanda qəzada məşhurlaşıb nüfuz qazanır və bu təhsil ocağı qəza Maarif İdarəsi tərəfindən rəsmiləşdirilir. Mədinə xanım Salahlı Qız Məktəbinin müdiri və müəlliməsi təyin edilir.

## MAARİF CƏBHƏSİNƏ ADDIM ATMAĞA VERİLƏN QƏRAR

Mədinə xanım 20 yaşında Dağkəsəmənli Şəhriyar bəylə ailə həyatı qurur. Şəhriyar bəy Qori Seminariyasını 1890-cı ildə bitirmiş, bir ara müəllimlik eləmişdi. Qazax qəzası rəisi ştab-kapitan Reuttun dəftərxanasında dilmanc işləyirdi. Ziyalı və mədəni bir adam kimi bütün qəzada tanınırdı. Dağ Kəsəmənə-Qiyasbəylilərə gəlin köçən Mədinə xanım qızlar üçün məktəb açır, burada eyni işlərini davam etdirir. 1916-cı ilin iyulunda atası Mehdi ağa yaşayıb-işlədiyi Əksiparada qətlə yetirilir. Bu, Mədinə xanımın həyatda yeniyetmə ikən ölən qardaşlarının, sevimli anasının ölümündən sonra aldığı növbəti ağır itki olur. 1917-ci ilin iyununda həyat yoldaşı Şəhriyar vərəm xəstəliyindən vəfat edir. Mədinə xanım çox keçmir ki, maarif cəbhəsinə girməyi qərara alır və qüvvəsini Tiflisdə sınayır. Bir neçə ay Zaqafqaziya Komissarlığında çalışır. Zaqafqaziya üç yerə parçalandıqdan sonra, o da Qazağa qayıdır. Qazax qəzası xalq məktəbləri inspektoru təyin edilən Mədinə xanım qəzada maarif işinin genişləndirilməsi yolunda yerli ziyalılarla çiyin-çiyinə bir ilə yaxın var qüvvəsini əsirgəmədən çalışır. Mədinə xanımın siyasi məsələlərlə yaxından maraqlanması bu dövrə təsadüf edir. Bir əyalət ziyalısı kimi Qafqazda və Rusiyada gedən prosesləri bacardığı qədər izləyir. Siyasi görüşləri etibarilə milliyyətçi bir adam olan Mədinə xanım Azərbaycanın istiqlalının qızğın tərəfdarı idi. 1919-cu ildə Qafqazın türk ziyalı elitasının Bakıya cəmləşməkdə olduğu bir dövrdə uşaqlarını da götürüb bu şəhərə gəlir. Qohumu Gövhər xanım Usubova ilə əl-ələ verərək, paytaxtın mədəni həyatına qoşulur. Gövhər xanım yaşadığı Nikolayevsk küçəsi-5 ünvanda türklər üçün savad kursu açmışdı. Bura 80 nəfərə yaxın qadınqız cəlb olunmuşdu. Hüseyn Cavid, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Xudaverdi Kələntərli, Səriyyə Əhmədova, Nəimə Qazıyeva bu kursda tədris işində idilər. Mədinə xanım bu təşəbbüsdən nümunə götürərək, mənzilində 1920-ci ilin martında belə bir axşam kursu təşkil edir və martın 10-da onun rəsmiləşdirilməsinə nail olur. Mədinə xanım axşam kursunun müəlliməsi təyin edilir. Qısa bir müddət ərzində bura savadlanmaq arzusunda olan 20 nəfərə yaxın qadın cəlb edə bilir. Kursda Üzeyir Hacıbəyov, Xədicə xanım Ağayeva və Şəfiqə xanım Əfəndizadə dərs deyirdilər.

Qazax qəzasında xalq məktəblərinin inspektoru olmuşdur. Bakıya köçəndən sonra burada yaşadığı mənzildə kurslar təşkil etmişdir. Sonra azərbaycanlı qızlar üçün Darülmüəllimat-qız məktəbləri üçün ibtidai sinif müəllimləri hazırlayan ilk pedaqoji təhsil ocağını yaratmışdır. Sonra Bakıda orta məktəblərdə, Kənd Təsərrüfatı İnstitutunda müəllimlik etmişdir. "Şərq qadını" jurnalının yaradıcılarından biri kimi savadsızlığa qarşı mübarizəyə qoşulmuşdur. Onun təşəbbüsü ilə Türk respublikaları arasında ilk qadın müəllimələr seminariyasının əsası qoyulmuşdur.

Onun həyatını əks etdirən materiallarda göstərilir ki, Mədinə və Gövhər millət üçün bu faydalı təşəbbüslərində nə qədər maneələri dəf etməli olurdular. Qəfildən çevriliş baş verir, Milli Hökumət devrilir, Sovet hakimiyyəti elan edilir. 1920-ci il dekabrın 20-də Mədinə xanım Qiyasbəyli Darülmüəllimatın müdirəsi və müəlliməsi, əri yeni hökumət tərəfindən Nargində güllələndikdən sonra dul qalmış Gövhər xanım Usubova isə onun müavini təyin edilirlər. Bu təhsil ocağında Azərbaycanın hər yerində açılmalı olan qız məktəbləri üçün müəllimələr hazırlanacaqdı. Bu adi bir iş deyildi, bütün Şərqdə ilk dəfə, məhz Bakıda - Azərbaycanda qızların öz dilində ali təhsil almaq imkanlarının təməli qoyulurdu. Bu təməl daşlarını qoymaq Mədinə xanımın taleyinə yazılmışdı. Mədinə xanım buraya tanınmış qadın pedaqoqlardan Şəfiqə xanım Əfəndizadə, Xədicə xanım Ağayeva, Sara xanım Talışinskaya, Badusəba xanım Köçərli və Fatma xanım Topçubaşovanı cəlb edir.

## KÖHNƏ ZİYALI NƏSLİNƏ MƏNSUB OLAN XANIM TEXNİKUMUN BİNASINDAKI OTAQLARDAN ÇIXARILIR

Darülmüəlliamatda, eyni zamanda, digər türk və müsəlman cümhuriyyətlərindən qızlar gəlib təhsil alırdılar. Məktəbin şöhrəti Azərbaycanın hüdudlarınadan uzaqlara yayılır. 1926-cı ilin sentyabrında Mədinə xanımı köhnə ziyalı nəslinə mənsub olduğuna görə müdirəlikdən götürürlər. Onun yerinə partiyaçı Mina xanım Mirzəyeva təyin edilir. Ancaq Mədinə xanım rus dili müəlliməsi kimi seminariyada qalır. Məktəbin adı dəyişdirilib "Pedaqoji Texnikum" qoyulur. 1928-ci ildə onu texnikumun binasındakı otaqlarınadan çıxarıb, Proletar küçəsindəki ikiotaqlı mənzilə köçürürlər.

1932-ci ilin noyabrında tramvaydan düşərkən yıxılır, onurğa sütunundan ağır zədə alır. Tramavay qəzasından sonra məktəblərə gedib-gəlməyi çətinləşir. Müəllimlik peşəsindən ayrılaraq, tərcüməçiliklə məşğul olur. Səməd Vurğunun vasitəsi ilə o çağın tanınmış rus şairlərindən N.Aseyev, V.Luqovskoy ilə yaxından tanış olmuşdu. Azərbaycan yazıçılarının ən yaxşı əsərlərinin rus dilinə tərcümə olunmasında onlara böyük köməyi dəymişdi. Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın, Nigar Rəfibəylinin bir çox şeirləri, M.S.Ordubadinin "Dumanlı Təbriz", Əbülhəsənin "Yoxuşlar" romanları rus oxucusuna Mədinə xanımın qələmi ilə çatdırılır: "Yevgeni Onegin"in çevrilməsində rus dilinin incəliklərinə vararkən, çətinliklərlə üzləşən Səməd Vurğunun ən yaxın məsləhətçisi Mədinə xanım idi. Mədinə xanım barəsində MTN arxivində saxlanılan və 1933-cü ildə tərtiblənmiş 16548 saylı formulyardakı xüsusi materiallardan anlaşılır ki, o, hələ 1925-ci ildə Azərbaycan DSİ və XDİK orqanları tərəfindən qeydiyyata alınmışdı və həbs ediləndək, yəni 1938-ci ilədək gücləndirilmiş agentura ilə əhatə edilmişdi. Bu dövrdə hər bir addımı ciddi müşahidə altında olmuşdu.

## DƏLİL-SÜBUT OLMADAN 45 YAŞLI MƏDİNƏ XANIM GÜLLƏLƏNDİ

1936-cı ilin soyuq bir qış günü dekabrın 8-də həbs edilir və 8 sentyabr 1937-ci ilədək 12 dəfə dindirilir. Heç bir əsas, dəlil-sübut olmadan, böhtan atılaraq, 45 yaşında olan Mədinə xanım Qiyasbəyli 1937-ci il sentyabrın 28-də güllələnmişdir. Mədinə Qiyasbəyli haqqında çıxarılmış hökm 1956-cı ildə Azərbaycan Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası tərəfindən ləğv edilərək, ona bəraət verilir.

Bəli, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105 illiyi tamam olur. Bu şərəfli tariximiizin qeyd edilməsi, onun gənc nəslə təbliğ olunması məqsədilə, artıq uzun illərdir ki, xüsusilə, müstəqilliyimizin bərpasından sonra məqsədyönlü addımlar atılır və ciddi işlər görülür. Bu gün belə insanların həyatı və keçdiyi böyük yol gənclərə bir nümunə olaraq təqdim olunur. Xalqımızın yetişdirdiyi belə xanımlar əməyi və qətiyyəti, iradəsi ilə yaddaşlarda əbədi həkk olunublar.

***Zümrüd BAYRAMOVA***

# Paşinyanın düşdüyü RÜSVAYÇI DURUM

**Ərazilərin qarşılıqlı şəkildə tanınması həqiqətən də nailiyyətdir, amma Ermənistan üçün yox, Azərbaycan üçün. Erməni cəmiyyəti belə hesab edir ki, Paşinyan rejimi onları uçuruma sürükləməyə hələ bundan sonra da davam edəcək. İndi ermənilər elə qənaətə gəliblər ki, baş nazirləri Azərbaycan Prezidentinə hər dəfə uduzmağı ənənə halına salıb və artıq işğaldan azad edilən torpaqlardan, ərazilərdən, Qarabağdan Nikol Paşinyan imtina da edib, həmin ərazilərin bizim xalqımıza məxsus olmasını qəbul etməklə də, eyni zamanda guya öz xalqından da imtina edib. Bu fikirlər Ermənistan cəmiyyətində formalaşıbsa, deməli, erməni baş nazirin hansı halda, hansı rüsvayçı durumda olduğu bəllidir.**



Əslində, Nikol imtina edib yox, imtina etmək məcburiyyətində qalıb və məcburiyyət qarşısında qalmasına da səbəb qüdrətli Azərbaycandır, ölkəmizin ən qısa zamanda əldə etdiyi qələbələrdir və bu qələbələri şərtləndirən ölkə rəhbəri, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, ordumuzun rəşadəti, xalqımızın həmrəyliyidir. Artıq Paşinyanın çıxılmaz vəziyyətdə olduğunu erməni cəmiyyəti başa düşür, amma onu başa düşməkdə çətinlik çəkir ki, erməni baş naziri daha heç nə edə bilmək, tor-



paq iddiasında, zəbt xülyalarında olanlar üçün hansısa bir "töhfə" vermək iqtidarında deyil. Heç arxalandıqları Fransa prezidenti Emmanuel Makronun belə hadisələri aciz şəkildə müşahidə etməkdən başqa imkanı yoxdur. Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin özü də vasitəçilikdən başqa hansısa imkanlara malik deyil ki, ermənilər bundan yararlana bilsinlər. Əksinə, Almatı bəyannaməsi əsasında münasibətlərin normallaşdırılmasına razılaşmaqdan, Qarabağın Azərbaycan ərazisi kimi tanınmasına razı olmaqdan başqa çarələri qalmayıb və bu, ölkəmizin növbəti uğuru, qələbəsidir.

"Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanın 86 600 kv.km ərazisini Ermənistan tanıdı, eləcə də Azərbaycan da Ermənistanın 29.800 kv.km ərazisini tanıdı və irəliyə doğru addım atdıq", deyə erməni baş nazir razılığa gəlindiyini ifadə etmək istəyib. Ermənistana məxsus mətbuat səhifələrində qeyd olunur ki, Nikol görünür, həqiqətən də özünü hansısa tarixi nailiyyətdə iştirak etmiş hesab edir. Hətta erməni cəmiyyəti bunu nailiyyət yox, özü üçün rüsvayçılıq hesab edir, çünki bu cəmiyyətə bu vaxta qədərki bütün hakimiyyətləri, elə Nikol Vovayeviçin özü də başqa şeylər vəd etmişdi və indi bu vədlərinin, xəyallarının puç olması onlar üçün ağrılı hesab olunur.

Bəli, bu dəfəki görüş zamanı erməni baş nazirinin etirafları, torpaqlarımızı, Azərbaycanın 86 600 kv.km ərazisini Ermənistan tərəfinin tanıdığını söyləməsi tarixi nailiyyətdir, amma Ermənistanın yox, məhz Azərbaycanın nailiyyətidir. Bu, həqiqətən də Azərbaycan üçün tarixi nailiyyətdir və bizim növbəti diplomatik uğurumuzdur. "Qarabağ Ermənistandır və nöqtə", deyə sayıqlayan erməni baş nazirini bunu deməyə məcbur edən ölkəmizin, dövlətimizin, xalqımızın əldə etdiyi qələbələr, Azərbaycanın qüdrətidir. İndi ermənilər özləri öz baş nazirlərini bu mənada da ələ salırlar. Onları aldadaraq hakimiyyəti ələ keçirən küçə nümayişçisinin sonra da belə sayıqlamalarla daxili auditoriyanı ələ almaq istəyinin ardınca rüsvayçı məğlubiyyəti, indi də torpaqlarımızı, Azərbaycanın 86 600 kv.km ərazisini Ermənistan tərəfinin tanıdığını söyləməsi həqiqətən də onun lağ hədəfi olması üçün yetərlidir.

Erməniləri ən çox qıcıqlandıran Şarl Mişelin, həmin o tanınan ərazilərin 86 600 kv.km deyil, təxminən 89 600 kv.km olduğunu söyləməsi və buna da erməni baş nazirin səsini belə çıxara bilməməsidir. Əslində, Avropa İttifaqı çox yaxşı bilir ərazilərin nə qədər və kimə məxsus olduğunu, amma indi etiraf edilməsi məhz Azərbaycanın uğurunun, qələbəsinin təzahürüdür. Bunu Nikol Paşinyan çox yaxşı başa düşür. Başa düşür ki, beynəlxalq ictimaiyyət Azərbaycanın uğurları ilə barışmaq, ölkəmizin həqiqətlərini, yaratdığı reallıqları qəbul etmək məcburiyyətindədir və buna qarşı gəlmək belə mənasızdır. Hər halda hər dəfə baş tutan görüşdə ölkəmizin diplomatik qələbələrinə Vovayeviçin şahid olması yetərlidir ki, onun səsi belə çıxmasın, amma bunu erməni cəmiyyətində başa düşməyənlər, yaxud başa düşmək istəməyənlər var. Onlar dərk etməkdə çətinlik çəkirlər ki, Nikol Paşinyan artıq heç nə edə bilmir, çünki haqq və hüquqlar məhz Azərbaycana məxsusdur. Elə buna görə də ermənilərin lağ hədəfinə çevrilməsi ilə onun elə yerindəcə razılaşması başadüşüləndir.

Bəli, həqiqətən də rüsvayçı duruma layiq olan erməni baş nazir lağ hədəfinə çevrilib və erməni cəmiyyəti tərəfindən hədəfə alınıb. Küçə nümayişlərindən istifadə edərək hakimiyyət kürsüsünü ələ keçirən manipulyatorun sərsəm bəyanatlarla çıxış etməsinin, erməni xalqına ağlına gələn vədlər verməsinin ardınca başını aşağı salıb müti şəkildə durması erməni cəmiyyətini özündən çıxarıb. Məsələ burasındadır ki, onun belə rüsvayçı duruma düşməsinin də səbəbləri aydındır və bu səbəbləri ermənilər özləri hamıdan yaxşı bilirlər. Yaxşı bilirlər ki, Paşinyan onların, hətta onlardan əvvəlkilərin çox absurd və həyasızcasına irəli sürdükləri iddiaları müdafiə edə bilmir. Amma onu da yaxşı bilirlər ki, indi hakimiyyət kürsüsündə oturub ölkələrini təmsil edən, bir vaxtlar isə küçələrdə beli çantalı xalqına ağlına belə sığışmayan vədlər verən biri indi hər dəfə məğlubiyyətlə ölkəsinə qayıdır. Məhz bu baxımdan indi ermənilərin onu lağa qoyması onsuz da gözlənilən idi.

"Rusiya bizə kömək etmədi", deyən erməni baş nazir, bu şəkildə şikayətlənməklə, məhz erməni xalqının ona vurduğu xəyanətkar damğasını alnından silmək niyyəti ilə günahkar axtarsındadır. Məqsədi də ilk növbədə rüsvayçı durumdan özünü və hakimiyyətini xilas etməkdir. Amma bu o demək deyil ki, belə bir niyyəti baş tuta bilər, əsla yox, çünki əvvələ, Ermənistanı müdafiə etmək kimi Rusiyanın bir öhdəliyi yoxdur və bu, Nikolu rüsvayçı durumdan xilas edən deyil. Digər tərəfdən də erməni xalqına "qızıl dağlar" vəd edən, daxili auditoriyanı ələ almaq üçün başından böyük bəyanatlarla sərsəm, absurd çıxışlar edən Nikol Paşinyan idi və indi erməni xalqının ondan hesab sorduğu, onu lağa qoyduğu zaman Rusiyanı günahkar kimi göstərmək istəməsi də onun özünü gülünc vəziyyətə salır. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun da Ermənistan hökumətinin bəyanatlarının arqumentsiz və yalan olduğunu təsdiqləməsi özü də Paşinyanın başına bir bəla oldu və bu, onun acınacaqlı rüsvayçı duruma düşməsi üçün daha bir şərait deməkdir. Çünki Nikol indi Rusiyadan əli üzülən və çarəsiz durumda qalan bir ölkə rəhbəri olaraq qəbul olunur erməni cəmiyyətində. Bir sözlə, aciz ölkə rəhbəri kimi lağa qoyulur və rüsvayçı durumdan çıxmaq üçün erməni baş nazirinin zərrə qədər şansı yoxdur.

KTMT-nin özünün də Ermənistana kömək etməməsinə, həmin ölkənin apardığı siyasəti, özü də işğalçılıq siyasətini dəstəkləməməsinə görə erməni cəmiyyəti yenə də Paşinyanı günahkar sayır və həmin təşkilatın müşahidəçi missiyasının Ermənistan ərazisində yerləşdirilməsinə dair sənəd hazırlanmasına, xarici işlər nazirləri səviyyəsində tam razılaşdırılmasına baxmayaraq, yekunda bu məsələ təxirə salınmasının da günahı Vovayeviçin adına çıxılır. Bəli, KTMT-nin müşahidəçi missiyasının əvəzində də Avropa İttifaqı missiyası elə İrəvanın, Paşinyanın və onun hakimiyyət komandasının dəvəti ilə Ermənistanda peyda oldu, amma Nikol həmin o dəvət etdiyi missiyanın da fəaliyyətini tənqid etdi. İndi erməni cəmiyyəti sual edə bilər ki, niyə fəaliyyətini bəyənməyəcəyi missiyanı ölkəyə dəvət edirdi? Sözsüz ki, həmin missiya ermənilərin absurd iddialarını, xülyalarını gercəkləşdirə bilməzdi, amma hər bir halda bunu erməni baş nazir istəmişdi və indi onun belə ağız büzməsi onun özünü gülünc vəziyyətə, rüsvayçı hala qoyur. Bir sözlə, haylar indi Paşinyanın yaxasından tutub onun rüsvayçılığını üzünə demək üçün əldə-ayaqdan gedirlər. Ən azından Ermənistana məxsus mətbuat səhifələrində erməni baş nazirə ünvanlanan fikirləri bunu təsdiq edir. Təsdiq edir ki, Paşinyanın rüsvayçılığını bütövlükdə erməni cəmiyyəti etiraf edir.

Həqiqətən də Ermənistanın baş naziri öz uğursuzluqlarını ört-basdır etməyə çalışır, amma buna nə qədər nail olduğu erməni cəmiyyətinin mövqeyindən bəllidir. Bəllidir ki, heç nəyə nail olmayıb və ermənilər indi Paşinyanı lağa qoyub ələ salırlar. Ermənistan hakimiyyətinin, şəxsən Nikol Paşinyanın özündən başqa hamını günahkar çıxarması həmin cəmiyyətin özündə də ikiüzlülük kimi qiymətləndirilir. Ümumiyyətlə, Ermənistana elə Avropa İttifaqının verdiyi ultimatum da göstərdi ki, Paşinyan da, onun hakimiyyət komandası da Avropanın özünün də hədəfindədir və bu da onun lağ hədəfi olması üçün daha bir şərt, daha bir amil oldu. Əgər Avropa İttifaqının İqtisadiyyat üzrə komissarı Paolo Gentiloni Aİ-nin Gömrük İttifaqında islahatlara dair təklifləri təqdim edərkən, Aİ-dən Ermənistana və bu ölkədən də Rusiyaya ticarət axınının şübhəli şəkildə artdığını bəyan edibsə, deməli, avropalıların da artıq mövqeyi bəllidir və Paşinyan çox acız durumdadır. Qəflətən Ermənistana qarşı sərt iqtisadi sanksiyalar tətbiq edilə biləcəyini belə ermənilər göz önünə alıblar. Belə olan halda küçə nümayişlərindən istifadə edərək hakimiyyəti qamarlayan biri niyə də lağa qoyulmasın?

"Bu gün haqqında danışdığımız dəhlizin yaradılması kontekstində qarşılıqlı fəaliyyət Azərbaycanla sıx tərəfdaşlıq şəraitində həyata keçirilir və biz Azərbaycan tərəfinin iştirakı ilə üçtərəfli formatda hazırlıqların tezliklə başa çatmasını səbirsizliklə gözləyirik", deyə Putinin bəyan etməsi Ermənistan üçün, Avropa İttifaqında heç kim Azərbaycanı qınamayacaq, mesajıdır. Deməli, Paşinyanın da, onun komandasının da, bütövlükdə Ermənistanın da hansı durumda olduğu barədə fikirlər bəllidir və erməni cəmiyyəti özü bu fikirləri paylaşırsa, burada Nikolun lağa qoyulmaması mümkün deyil. İndi erməni cəmiyyətinin kapitulyator adlandırdığı erməni baş nazir bir küçə nümayişçisi idi və hiyləgərliklə hakimiyyət kürsüsünü ələ keçirdiyi ən çox ermənilərin özlərinə ayandır. Artıq idarəetmə qabiliyyətinin, səriştəsinin, siyasi uzaqgörənliyinin olmaması səbəbindən məğlubiyyətlərini biri-birinin ardınca düzən Nikol Paşinyan öz ölkəsinin vətəndaşlarının lağ hədəfinə çevrilməklə rüsvayçı duruma düşduyunu həmdan yaxşı özü bilir. Bilir ki, sonuncu dəfə Brüssel görüşlərində onun acizliyini, diplomatik məğlubiyyətini, uğursuzluğunu müşahidə edən hayların onun ünvanına dedikləri qalmayıb. Buna rüsvayçılıqdan başqa nə ad vermək olar?

***İnam Hacıyev***

TƏRS BAXIŞ

# Azərbaycanlılar qəhrəman millətdir, Rəsul "bəy"

**"Azərbaycanlılar qorxaq millətdir" ifadəsini utanmadan "TV Müsavat"ın efirindən söyləyən, hazırda Amerikada yaşayan Azərbaycan Respublikası Milli Məclisinin sabiq sədri Rəsul Quliyev öz xahişi ilə yenidən həmin efirə qayıtmalı və işlətdiyi təhqiramiz kəlmələr üçün Azərbaycan xalqından üzr istəməlidir.**

Necə yəni azərbaycanlılar qorxaq millətdir? Hansı düşüncənin və təfəkkürün sahibi olmalısan ki, bu ifadəni çıxıb efirdən söyləyəsən? Efirdən söyləmək nədir, bunu öz-özünə pıçıldamaq belə qəbahətdir, Rəsul "bəy".

Azərbaycanlılar nə üçün qorxaq millətdirlər? Hansı qənaətlə bu ifadəni işlətdiniz? Aparıcının müdaxiləsinə baxmayaraq yenə dediyiniz sözün üstündə durdunuz və "döyüşçülər deyil, Azərbaycan əhalisi qorxaqdır" söylədiniz. Bu videoya bəlkə 4-5 dəfə qulaq asdığım üçün əsla yanılmaram.

Soruşmaq ayıb olmasın, o döyüşçüləri kimlər dünyaya gətirib? Qorxaq ata-anadan cəsur övlad, oğul, əsgər necə doğula bilər? Bəs onları belə cəsur, qəhrəman, igid, vətənpərvər kim yetişdirib? Əlbəttə ki, dediyiniz Azərbaycan əhalisi yetişdirib. Uşaq ailədə aldığı tərbiyəni sonrakı mərhələdə cəmiyyətdə davam etdirməklə əsgər, döyüşçü, ziyalı olur, bunu bilsəniz, yaxşı olar.



Deyirsiniz ki, azərbaycanlılar 90-cı illərdə erməni tankını görən kimi qorxub qaçırdılar. Azərbaycanlılar hara qaçmışdı, bunu kim görmüşdü? Qaçmışdılarsa, nə üçün Birinci Vətən müharibəsində 15 mindən artıq şəhidimiz, minlərlə qazimiz olmuşdu? Nə danışdığınızın heç fərqinə vardınızmı? Danışdıqca, özünüzü batırdınız, xalqın gözündən bir daha saldınız. Zatən illər öncədən gözdən düşmüş biri idiniz.

90-cı illərin sizin kimi hakimiyyət kürsüsündən yana övladını satmağı gözə alanlar o torpaqları ermənilərə satmamışdılarmı? Siz də 90-cı illərdə hakimiyyətdə idiniz də. İnsanlar Qarabağda kömək istəyəndə həréniz bir masanın altında gizlənmişdiniz. Yüksək vəzifədə idiniz. Ordunun dirçəlməsinə hansı köməkliyi göstərmişdiniz? Qarabağın əldən getməməsi üçün hansı addımı atmışdınız?

Azərbaycanlılar erməni tankını görəndə heç vaxt qorxub qaçmayıblar, Rəsul "bəy". Sizin sayənizdə əliyalın olan insanlar sinələrini o tankların qarşısına verdilər, şəhid, qazi oldular. İqtisadiyyatını çökdürdüyünüz ölkənin biçarə insanları erməninin silahı burnunda zorla torpaqlarından çıxarıldılar. Sizlər isə bütün bunlara göz yumdunuz. İndi də qalxıb azərbaycanlıları qorxaq adlandırırsınız? Xalqına, millətinə bu cür münasibətdə olduğunuz üçün nə qədər yazıq insansınız...

Deyirsiniz ki, Azərbaycan ordusu son beş ildə formalaşıb. Burada da ikibaşlı "siyasət" aparırsınız. Bağışlayın, 5 ilə formalaşan ordu 30 ildə ermənilərin torpaqlarımızda yaratdığı istehkamı yara bilərdimi? 44 gündə minlərlə hektar ərazini işğaldan azad edə bilərdimi? Düz 20 il idi ki, çökdürdüyünüz iqtisadiyyatın dirçəldilməsi ilə paralel aparılırdı ordu quruculuğu. Ölkədən kənarda yaşamaq o demək deyil ki, bunlardan xəbərsizsiniz.

Yaxşı xəbəriniz var. İynədən sapa kimi hər şeydən məlumatlısınız. Buradakı məfkurədaşlarınız bunların hər biri haqqında sizə təfsilatı ilə məlumat verib.

Qaldı digər söhbətlərinizə, bir neçə dövlətin adını çəkib ikibaşlı "siyasi" fikirlərlə çıxış etməyinizə, düşünürəm ki, bunlar yersizsən də yersiz oldu. Çünki ümumiyyətlə, siyasətdən çox kənar bir xarici görkəminiz və danışıq qabiliyyətiniz var. Odur ki, çəkilib yad, lakin doğma ölkənizdə başınızı aşağı salıb həyatınızın qalan hissəsini sakit, özünüzü büruzə vermədən yaşamağınız daha məsləhətli olardı.

Azərbaycanlıları qorxaq millət adlandırmağın cəzasını isə hökmən çəkəcəksiniz. Daha doğrusu çəkirsiniz də. Bu Vətəndə, bu millətin içərisində olmamaq ən böyük cəzanız deyilmi?.. Elə bizi qorxaq adlandırmağınız da sizi ölkəmizə qoymadığımız səbəbindən, yanıb-alovlanmağınız ilə bağlı deyilmi?

Yazıqlar olsun, vaxtında özünüzü elə aparardınız ki, ölkənizdə yaşamaq, burada ölmək şansınız olardı. Acığınızı bir millətin, həm də tarixin bütün dönəmlərində qəhrəmanlıq, igidlik, mərdlik təcəssümü olan bir millətin üzərinə tökməyiniz, onu qorxaq adlandırmağınız sizin, ümumiyyətlə, həyatla əlaqənizin kəsildiyini şərtləndirən amildir.

Bütün dünya, hətta yaşadığınız ölkə İkinci Vətən müharibəsində azərbaycanlıların cəsurluğuna, qəhrəmanlığına, həmrəyliyinə heyran qalmışdı, siz bunu görüb, eşitməmişdinizmi? O igidlər bilirsiniz kimlər idi? 90-cı illərdə satılan torpaqlarda şəhid, qazi olanların, illərlə məcburi köçkün kimi yaşayanların övladları idi. İndi bildiniz cəsarətin, məğrurluğun tarixi haraya gedib söykənir?

Xalqının tarixini, millətinin adət-ənənələrini, mental dəyərlərini bilməmək nə böyük bədbəxlikdir ki, bu, sizə nəsib olub. Təəssüf edirəm, Rəsul "bəy". Təəssüf edirəm ki, Azərbaycan belə cəsur, qorxmaz, mərd övladlarla yanaşı, sizi də dünyaya bəxş edib.

Söhbətinizin sonunda isə özünüzü tamam batırdınız, bunu da deməsəm olmaz. Aşığın sözü qurtaranda "neynim-neynim" dediyi kimi, sizin də diliniz ağzınızda dolaşırdı. Qatdınız-qarışdırdınız hər şeyi bir-birinə. Bunların içindən çıxmağa macal tapan kimi etdiniz böyük səhvi, əslində günahın bağışlanması üçün (hansı ki, bu, bağışlana biləcək bir məsələ deyil) yalvarın bu xalqa.

Bir də sizin üçün torpaq, xalq, millət anlamı var məgər, mən bu qədər danışıram?..

***Mətanət Məmmədova***

## "Ermənistan başa düşür ki, sülh müqaviləsi imzalamağın alternativi yoxdur"



"Ermənistan sülh müqaviləsinin imzalanmasında konstruktiv mövqe sərgiləyərsə, sülh müqaviləsi yaxın dövürdə imzalana bilər. Amma Moskvada və Kişinyovda nəzərdə tutulan görüşlərin sülh müqaviləsinin imzalanması prosesinin sürətlənməsinə impuls verəcəyini hesab edirəm. Bununla yanaşı qeyd etmək istəyirəm ki, keçirilən hər bir görüş mövqelərimizi yaxınlaşdırır, məsələlər razılaşdırır və Ermənistana ədalətli mövqeyimizi qəbul etməkdən başqa yolun olmadığı başa salınır". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, mayın 22-də baş nazir Paşinyan Moskva görüşü ərəfəsində mətbuat konfransı keçirərək Azərbaycanın ərazisinin bütövlüyünü tanıdığını, anklavların Azərbaycana məxsus olduğunu və Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan etməsi qarşıdan gələn görüşlərin nəticəyönümlü olacağı ilə bağlı fikir yürütməyimizə imkan verir: "Ermənistan artıq başa düşür ki, sülh müqaviləsi imzalamağın alternativi yoxdur. Qarabağda müvəqqəti yerləşdirilmiş sülhməramlıların müddəti 2025-ci ildə başa çatır. Ondan sonra Ermənistan istəsə də, istəməsə də Qarabağda yaşayan ermənilər Azərbaycanın qanunlarına tabe olmağına məcbur olacaqlar. Həm də Azərbaycan öz ərazilərində nəzarətini bərpa etmişdir və istədikləri kimi Qarabağa qanunsuz daşımaları davam etdirə bilmirlər. Zaman Azərbaycanın xeyrinə işləyir və bundan sonra ölkələrarası düşmənçiliyi yaşatmaqla Ermənistan özünü geriyə aparır. Ona görə də, Azərbaycan Ermənistan görüşlərinin son vaxtlar intensivləşməsi ölkələrarası münasibətlərin normallaşması prosesini yaxınlaşdıracağını və regiona davamlı sülhün gətiriləcəyini hesab edirəm".

***GÜLYANƏ***

ANALİTİK + ÖZƏL

# Sinan Oğanın seçimi: 2-ci tur nə vəd edir?

*Hadisələrin inkişafı bir-birindən maraqlı və diqqətçəkəndir*

Qardaş Türkiyədə prezident və parlament seçkiləri Azərbaycanın da diqqəti mərkəzindədir. 2-ci tura qalmış seçkilərdə iki əsas namizədlərin - Rəcəb Tayyib Ərdoğanla Kemal Kılıçdaroğlunun rəqabəti eyni zamanda, kənarda qalmış namizədlərin də qərarlarından asılı vəziyyətdədir. Bu baxımdan, əslən azərbaycanlı olan Türkiyə siyasətçisi Sinan Oğanın da hansı cinahda yer alacağı suallar doğurur.

### "ATA" ittifaqı parçalansa da...

Fakt budur ki, "ATA" bloku fəaliyyətini dayandırıb. Hansı ki, məhz Sinan Oğanın 1-ci turda vahid namizəd olduğu blokda "Ədalət" və "Zəfər" partiyaları da yer alıblar.

O da məlumdur ki, Oğan 5,17 % səs toplamaqla 1-ci turda 3-cü yerə çıxmışdı. Ancaq seçkilər 2-ci tura qalandan sonra "ATA" bloku da parçalandı. Belə ki, mayın 22-də "Ədalət" partiyası CHP-nin namizədi Kemal Kılıçdaroğlunu



dəstəkləyəcəyini bəyan etdi.

"Zəfər" partiyası isə öz qərarını hələ ki, verməyib və bugünlərdə həmin qərarın verilməsi gözlənilir. Oğan isə artıq Ərdoğanı dəstəkləyəcəyini bəyan edib. Belə olan halda sual yaranır - "ATA" blokunun parçalanması onun namizədinin topladığı səsləri də parçalayacaqmı? Daha bir maraqlı məqam isə budur ki, seçkilərə bir neçə gün qalmış Oğana verilən səslər 1-3% arasında oynayırdı. Lakin seçkilərə 2 gün qalmış Muharrem İnce namizədlikdən geri çəkildikdən sonra Oğanın mövqeləri sürətlə möhkəmlənməyə başladı.

### Sinan Oğanın özü ittifaqa daxil olan partiyalardan daha çox səs toplamağa müvəffəq olmuşdu

Yeri gəlmişkən, mayın 4-də parlament seçkilərində Oğanın namizədliyini irəli sürən "ATA" İttifaqı səslərin 2,43 faizini toplamışdı.

"Zəfər" partiyası 2,23%, "Ədalət" partiyası isə 0,20% səs toplamışdı. Başqa sözlə ifadə etsək, Sinan Oğan tərəfindən yığılmış səslərin 5,17%-nin yarısı "ATA" blokundakı partiyalara məxsusdur. Fəqət Sinan Oğanın özü ittifaqa daxil olan partiyalardan daha çox səs toplamağa müvəffəq olmuşdu. Həmçinin, bu səslərin bir hissəsi də seçkiləri tərk etmiş Muharrem İnceyə də məxsus olub.

Digər tərəfdən, partiyaların mövqeləri Oğana verilmiş səslərə həlledici təsirlərini göstərməyəcək. O cümlədən, istənilən halda bu səslər bir namizədə verilməyəcək, onlar namizədlərin arasında bölünəcək. Ehtimal var ki, hətta Oğanın tərəfdarlarının bir qismi səsvermələrə qatılmaya da bilərlər. Ancaq fakt budur ki, Oğanın ikinci turda Ərdoğanı dəstəkləməsi, əsasən, siyasi cəhətdən praqmatik qərardır.

### Ərdoğan növbəti dəfə prezident seçildikdən sonra Oğan gələcək karyerasına kart-blanş ala bilər

Məsələ ondadır ki, digər namizədlərdən və partiyalardan fərqli olaraq Sinan Oğan seçkilərə müstəqil qatılıb. Bu, o deməkdir ki, seçkilərin sabahı günü Oğanın karyerası başa çata bilər. O, ən yaxşı halda bir neçə gün ərazində prezidentliyə keçmiş namizəd kimi müsahibələr verə, diskussiyalarda iştirak edə bilər. Məhz bu baxımdan, Oğan üçün hadisələri doğru proqnozlaşdırmaq vacibdir. Çünki onun bu vasitə ilə özünün siyasi kapitalını da toplamaq şansı var.

Bunun üçün isə Oğanın Ərdoğana etimad etməsi lazımdır. Yəni, Ərdoğan növbəti dəfə prezident seçildikdən sonra Oğan gələcək karyerasına kart-blanş ala bilər və yalnız siyasi deyil, həm də maliyyə, eləcə də inzibati resurs dəstəyi də mümkündür. Oğan bu vasitə ilə yeni və böyük siyasətə tərəf addım ata, hökumətə yaxınlığı ilə seçilən yeni siyasi partiya təsis edə Ərdoğan iqtidarına partnyor ola bilər. Həmçinin, 14 may seçkiləri göstərdi ki, Oğanın lider olaraq perspektivləri var və bu gün onun Ərdoğanın cinahında yer alması da siyasi imtiyazlarını artırır. Hər halda, hadisələr də bu çərçivədə inkişaf edir.

***Afət Tahirqızı***

# Rusiyalı ekspert:
# "Ermənistan Rusiya üçün düşmən dövlətə çevrilir"



## İqor Korotçenko: Azərbaycan İrəvanı danışıqlara məcbur etmək üçün beynəlxalq hüquq çərçivəsində zorakı hərəkətlərə əl ata bilər

***Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Moskva danışıqlarının nəticələri barədə "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamları açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Rusiyanın xarici işlər naziri Sergey Lavrov mayın 19-da Moskvada azərbaycanlı və erməni həmkarlarının iştirakı ilə keçirilən üçtərəfli danışıqların yekunları üzrə bildirib ki, Bakı və İrəvan əsas məsələlərdə razılaşıblar, amma sülh müqaviləsi üzərində iş fundamentaldır, delimitasiya, nəqliyyat-iqtisadi əlaqələrin blokunun açılması, Qarabağda və Ermənistan-Azərbaycan sərhədində təhlükəsizlik vəziyyətinin yaxşılaşdırılması məsələlərində sülh müqaviləsi üzrə irəliləmək çətin olsa da mümkündür. Moskva danışıqlarının nəticələri haqqında nə deyə bilərsiniz?*

- Moskva bir daha qeyd etdi ki, ilk növbədə tərəflər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatların bəndlərini yerinə yetirməlidirlər. Bu nizamlanma üçün əsasdır. Və onların həyata keçirilməsi ilə sülh müqaviləsinə doğru hərəkət etmək asanlaşır. Amma obyektiv olaraq, İrəvan əksini bəyan etməsinə baxmayaraq, nizamlanmanın heç bir sahəsində praktiki nəticə əldə etmək üçün real istək nümayiş etdirmir. "Bir addım irəli, iki addım geri"- rəsmi İrəvanın gördüyü işləri belə xarakterizə etmək olar.

Təəssüf ki, əvvəllər belə görüşlər çox olub və təbii ki, sonra da olacaq. Bu, ara nəticədir və mən şübhə edirəm ki, bu, hər hansı bir şəkildə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasına işarə edə bilər və ya digər sahələrdə konkret nəticələr verə bilər.

Bəli, Sergey Lavrov bildirib ki, tərəflər artıq nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxairlmasına dair yekun razılaşmaya yaxındırlar. Bu həftə isə baş nazirin müavinlərinin sədrlik etdiyi üçtərəfli qrup bu məsələ ilə bağlı görüşməlidir. Yaxın vaxtlarda, Rusiya XİN rəhbərinin dediyi kimi, tərəflər həmçinin Rusiyanın məsləhətçi iştirakı ilə sərhədin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli komissiyanın iclasının keçirilməsi barədə razılığa gəliblər. Amma bu cür bəyanatları birinci dəfə deyil ki, eşidirik, 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanat imzalanandan bəri müzakirə olunur. Lakin o vaxtdan bəri bu problemlərin həlli istiqamətində praktiki irəliləyiş əldə olunmayıb. İlk növbədə, rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyinə görə.



Ermənistanın baş naziri 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanat imzalayaraq üzərinə götürdüyü öhdəliklərin əksinə olaraq, ötən ilin sonunda Zəngəzur dəhlizini açmaq fikrində olmadığını açıqladı, yəni, imzalanmış sənədin bəndlərini yerinə yetirmək fikrində deyil.

Bir diplomat kimi Sergey Viktoroviç nikbin bəyanatlar səsləndirir, lakin bir təcrübəli diplomat kimi o, yaxşı bilir ki, danışıqlar yolunu və müəyyən məsələlərin praktiki həyata keçirilməsini uzun məsafə ayırır. İrəvan tərəfdən xoşməramlılıq göstərilsəydi, hər şey problemsiz, qısa müddətdə həll oluna bilərdi. Ancaq bu yoxdur və biz bəzi çəhrayı ümidlərə qapılmamalıyıq. Azərbaycanla Ermənistan arasında sülhün dönməz olmasına, baş vermiş dəyişiklikləri düzəltməyə doğru irəliləmək uzun müddət tələb edəcək və asan olmayacaq. Amma Ermənistan bunu etiraf etmək istəmir. O, mütəmadi olaraq əvvəlki öhdəliklərinin yerinə yetirmir, kağız üzərində imzaladığından daim imtina edir.

Biz çox gözəl başa düşürük ki, tam nizamlanmaya və tam hüquqlu sülh müqaviləsinə nail olunmazdan əvvəl çox iş görülməlidir. Çox güman ki, proses Ermənistanın növbəti təxribatçı şıltaqlığı olmadan keçməyəcək. Birdən hər şeyin rəvan və yaxşı gedəcəyini düşünmək sadəlövhlük olardı. Üstəlik, Ermənistan Qərbə meylini getdikcə daha çox nümayiş etdirir.

Və dünən Ermənistanın baş nazirinin nizamlanma prosesi, Rusiya, KTMT və Qərblə münasibətlərlə bağlı geniş mətbuat konfransında səsləndirdiyi bəyanatlar buna bir daha sübutdur.

Görünür, Paşinyan əvvəl Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı konstruktiv bəyanatlar verir, sonra isə dərhal cavabını deyilənləri təkzib edən bəzi qeyd-şərtlərlə rəngləndirir, diametral əks tezislər səsləndirir. Ermənistanın baş naziri özünəməxsus rolunda çıxış edir, faktlar, rəqəmlər və şəraitlə sərbəst hoqqa çıxarır. Paşinyanın siyasi davranışının məntiqini indi iki amil müəyyənləşdirir və məncə, onlar hər şeydən üstündür. Birinci amil siyasi həyatda qalmaq və mümkün qədər uzun müddət özünü dövlətin birinci şəxsi kimi Ermənistan siyasətində saxlamaq məntiqidir.

İkinci amil odur ki, dediyim kimi, Ermənistan Avrasiya vektorundan imtina etdiyini açıq şəkildə göstərib, təbii ki, Avropanın xeyrinə. O, yenidən KTMT-ni tənqid edir, Qərbə Rusiya ilə, KTMT ilə əl-ələ tutmadığını göstərir və İrəvan bu təşkilatda iştirakını dondurduğuna, hətta KTMT-dən çıxa biləcəyinə işarə edir - bu, Moskvaya qarşı hərbi-siyasi şantajdır. Mənə elə gəlir ki, Ermənistanın son nəticədə hara sürüklənmək istədiyinə heç bir şübhə ola bilməz. Və belə şəraitdə özünü heç nə baş verməmiş kimi göstərmək Rusiyanın uzaqgörən xarici siyasəti üçün sadəcə olaraq axmaqlıq olardı.

Bizə baş verənlərə aydın, güzəştsiz qiymət vermək lazımdır. Bunu birbaşa səsləndirməkdən çəkinmək lazım deyil, çünki başa düşmək lazımdır: Ermənistan çox yaxın gələcəkdə Rusiyaya ən azı dost olmayan, hətta bəlkə də düşmən olan ölkə olacaq.

Zaman məsələsidir ki, Paşinyan və İrəvan Moskvaya deyəcək ki, məni bağışla, xudahafiz. Moskva indi Ermənistanda və onun ətrafında cərəyan edən hadisələri hansısa yolla geri qaytara bilməsə problem yaranacaq, çünki bu proses artıq başlayıb, bəlkə də, geri dönməzdir.

***- Paşinyan bildirib ki, liderlərin gözlənilən üçtərəfli görüşündə sülh müqaviləsinin imzalanması ehtimalı azdır və əgər Azərbaycan yaxın gələcəkdə qarşılıqlı məntiq əsasında sülh müqaviləsi ilə bağlı yenilənmiş təkliflər göndərərsə, güzəştlərə gedərsə, o halda İrəvanın sülh müqaviləsi imzalamağa razılıq verməsi tamamilə mümkündür. Hansı güzəştlərdən danışır?***

- Qarabağla bağlı güzəştlər, Qarabağın erməni icması. Paşinyan bir tərəfdən Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edir, digər tərəfdən də "rəsmi Bakı Qarabağda kök salmış erməni separatçıları ilə onların statusu, təhlükəsizliyi və s.-lə danışmalıdır" tezisini irəli sürür. Bir daha təkrar edirəm: Ermənistan tərəfinin mövqeyində hər hansı dəyişiklik gözləmək sadəlövhlükdür. Yalnız ərazidə konkret şəraitdə dəyişikliklər Ermənistanı müəyyən reallıqları qəbul etməyə və hansısa konstruktiv istiqamətə getməyə vadar edir. Siyasi-diplomatik üsullar istər-istəməz Azərbaycanın İrəvanı daha konstruktiv və danışıqlara yararlı etmək üçün beynəlxalq hüquq çərçivəsində məqsədyönlü zorakı hərəkətləri ilə müşayiət olunacaq. Bu, İrəvandan Azərbaycana qarşı davamlı uzunmüddətli demaqogiya, yalan və ittiham kampaniyasından daha təsirli olacaq.

Ermənistan cəmiyyətində qisasçı qüvvələrin mövqeləri kifayət qədər güclüdür. Düzdür, onlar cəmiyyətin Ermənistanın baş nazirini dəstəkləyən hissəsi ilə müqayisədə daha kiçik bir hissəni təşkil edirlər, amma yenə də təsirli dairələrdir. Beynəlxalq erməni diasporu tamamilə revanşist mövqe tutur və başa düşür ki, əgər o, Qarabağın indi erməni icmasının sıx məskunlaşdığı həmin hissəsinə Azərbaycanın tam nəzarəti bərpa etməsi prosesini dayandırmaq istəyirsə, Paşinyana arxayın olmamalıdır. Və o, öz maliyyə və siyasi rıçaqlarından istifadə edərək aktiv şəkildə təkbaşına fəaliyyət göstərməyə çalışır ki, hansısa yolla prosesi aktivləşdirib işə salsın. Paşinyanın səsləndirdiyi ziddiyyətli bəyanatlar siyasi fitnədir. Əgər vəziyyət nəzarətdən çıxmağa başlasa, o, deyə bilər: "Baxın, mən burada Qarabağ ermənilərini müdafiə edirəm". Bunun üçün o, bəyanatlar verir ki, Bakı Qarabağ erməniləri ilə danışıqlara getməlidir. Paşinyan üçün özünü hakimiyyətdə saxlamaq prioritetdir. Və bu istək ondan tələb edir ki, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, İrəvanın on illərdir həyata keçirdiyi qeyri-konstruktiv siyasəti davam etdirsin.

***- Ermənistanın baş naziri bir daha bəyan etdi ki, Qarabağda ermənilərin təhlükəsizliyini təmin etməyə hazır olan bəzi dövlətlər var...***

- Təbii ki, bu, ABŞ, Böyük Britaniya, Fransa, Avropa Birliyidir. Cənubi Qafqazda böyük geosiyasi oyun gedir. Qərb "Şimal-Cənub" layihəsinin həyata keçirilməsini dayandırmaq üçün Cənubi Qafqazda yeni gərginlik, hərbi münaqişə yaratmağa çalışır. Paşinyan Qərbin burada oynadığı böyük oyunda sadəcə bir piyadadır. Berlinin getdikcə fəallaşan mövqeyi də diqqətəlayiqdir. Əvvəllər bərabər məsafədə mövqe tuturdusa, indi fransızlarla birlikdə bölgəyə fəal şəkildə daxil olur.

İrəvanda fransız agentləri və alman xarici kəşfiyyatı fəal işləyir. Mühakimə edə bildiyimiz qədər, diplomatik pərdə altında kifayət qədər təcrübəli kəşfiyyatçılar gəlib. Səyahət etməyə və Ararat konyakını içməməyə gəlməyiblər. Onlar Ermənistanı Rusiya üçün ən düşmən dövlətə çevirmək və eyni zamanda, Qərbə regionda geosiyasi maraqlarını daha uğurla həyata keçirməyə imkan verəcək yeni gərginlik raundunu təhrik etmək məqsədilə öz hökumətlərinin siyasi iradəsini yerinə yetirməyə gəliblər. .

Artıq geniş tərkibdə olan, nizami hərbçilərdən və Aİ-yə üzv dövlətlərdən yığılmış bu bədnam müşahidə missiyası məsələlərin həllinə kömək etmir. Qərb Ermənistan ərazisində troya atı kimi hərəkət edir.

***- Putin, Əliyev və Paşinyan arasında Moskvada gözlənilən potensial görüşün əhəmiyyəti nədən ibarətdir?***

- Həqiqətən də, bu baş tutsa, vacib görüş olacaq. Bu, təkcə Moskvanın Azərbaycanla Ermənistan arasında nizamlamada əsas vasitəçi statusundan imtina etmək niyyətində olmadığını göstərmək üçün vacib deyil, əsasən, nəticələrin əldə edilməsinin mümkünlüyü baxımından vacibdir.

Paşinyanın Moskvaya səfərləri qismən ritual xarakter daşıyırsa, İlham Əliyevin Rusiyaya səfəri həmişə konstruktiv dialoq və həm Bakının, həm də Moskvanın milli maraqlarına cavab verən məsələlərin həlli üçün fürsətdir. Vladimir Putin bu əhval-ruhiyyəni görür və Azərbaycanın mövqeyini anlayır. Çünki bunu deyən və etməyən Ermənistandan fərqli olaraq, Azərbaycan öz rəhbərinin sözü ilə kənara çəkildi, əgər rəhbər desə ki, razılaşmışıq və bu razılaşmalara əməl edəcəyik, bu istiqamətdə hərəkət edəcəyik, bu o deməkdir ki, bunun belə olacağına dəmir-beton zəmanət verilir.

Ona görə də Rusiya və Azərbaycan liderlərinin konstruktiv münasibəti Ermənistan-Azərbaycan məsələsində sıçrayışlı nəticələr olmasa da, irəliləyiş gətirə bilər.

***- İlham Əliyev bir daha bildirdi ki, hər şeyə rəğmən, sülh sazişinin imzalanması qaçılmazdır.***

- Bu, rəsmi Bakının mövqeyidir. Sülh müqaviləsinə alternativ yoxdur. Yaxşı, Ermənistan nə vaxta qədər olduğu vəziyyətdə qalacaq. Əgər o, sülhə getməsə, bu, ona çıxılmaz vəziyyətdən və siyasi, iqtisadi perspektivlərin olmamasından başqa heç nə verməyəcək. Yalnız sülh müqaviləsi, Azərbaycan və Türkiyə ilə nəqliyyat kommunikasiyalarının açılması Ermənistana daha yaxşı gələcək üçün şans verə bilər. Heç bir Avropa İttifaqı, heç bir Amerika Birləşmiş Ştatları Ermənistan üçün milli inkişaf, iqtisadiyyatın stabil işləməsi məsələlərini həll etməyəcək. Bunu yalnız Ermənistanın özü siyasi iradə və onun inkişafının və qonşuları ilə dinc yanaşı yaşamasının zəruriliyini dərk etməklə edə bilər.

**Tərcümə - Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

# Əkin sahələri niyə azalıb?

## İQTİSADÇI AÇIQLADI



"Azərbaycanda 4 milyon yox, 2 milyon hektar əkinə yararlı torpaq sahəsi var. Həmin əkinə yararlı torpaqların təxminən dörddə biri, yəni 500 min hektara yaxını suvarılan torpaqlardır. Suvarılan torpaqların da təxminən yarısı, 250-300 min hektar arası torpaqlarımız normal suvarıla bilir. Yerdə qalan sahə isə normal suvarıla bilmir".

Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli deyib.

Onun sözlərinə görə, əkin sahələrinin azalmasının bir neçə səbəbi var: "Əsas səbəb bu gün fermerlərin rentabelli məhsul yetişdirə bilməməsi ilə bağlıdır. Yəni, hər il fermerlərin əksəriyyəti məhsul becərir və yetişdirir deyə ziyana düşür. Bunun da özəl səbəbləri var. Səbəblərdən biri də odur ki, dövlətin fermerlərə verdiyi subsidiya yetərli deyil, ölkədə su təminatı normal deyil, ildən-ilə torpaqların böyük bir hissəsi şoranlaşaraq əkin dövriyyəsindən çıxır, ölkədə toxumçuluq seleksiya işi dövrü tələblərinə uyğun olaraq qurulmayıb. Ona görə də fermerlər hər il müəyyən qədər əkin sahələrini dövriyyədən çıxarmaq məcburiyyətində qalırlar. Ona görə də ötən il də müəyyən miqdarda əkin sahələri dövriyyədən çıxarılmışdı. Bu il də bu əkin sahələrinin həcmi bir qədər yüksələrək 12,8 faizə çatıb. Bu il artıq rekord həddir. Bu həm də pambıqçılıqla məşğul olan fermerlər ki var, onlar da son illə su çatışmazlığı üzündən pambıq əkininə son verdikləri üçün bu əkin sahələri də boş saxlanılıb. Bu da boş qalan əkin sahələrinin həcminin artmasını bir qədər artırıb".

***Ayşən Vəli***

FELYETON

# "Wolt"lar daşıyır, biz yeyirik...









**Ay qardaş, ay bacı, sonra deyirik ki, biz niyə gündən-günə kökəlirik axı? Ta arıqlamaq üçün axtarmadığımız çarə qalmır. Amma yeməkdən də qalmırıq axı. Kökəlməyin səbəbini hər şeydə axtarırıq, bircə yeməkdən başqa. İndi gəl, camaatı başa sal ki, hər saniyədə bir qarşına çıxan "Wolt"lar ki var ha, onlar nə qədər ki, daşıyır, arıqlamaqdan söhbət belə gedə bilməz.**

Əşi, daşısın ey, bizə nə var. Alan alsın, hər gün, hər dəqiqə yesin, bizə nə dəxli var. Kökəlsin, xəstələnsin, yüz kiloya çatsın, vallah, nə işimizə qalıb. Bir halda ki, elə hey qəzetimizdə "ay camaat, qidalanmada diqqətli olun, sağlam qidalanın" deyirik, eşitmirlər, "hər şey yeməyin, sağlığınıza diqqət edin" deyirik, dinləmirlər, qoy getsinlər, nə bilirlər, onu da etsinlər. Bizim qarnımıza yemirlər ki Pulunu bizə ödətmirlər ki Yediklərini biz sinirib kökəlmirik ki Sağlamlığı sual altında olan yeməkləri biz yeyib sağlamlığımızdan vaz keçmirik ki.. Qoy ha yesinlər, yeyə biləcəkləri qədər

Mənim dərdim ayrı dərdir ey. Bu "Wolt"lar var ha, ay qardaş, ay bacı, bunlar imkan vermir axı o liftlərdən biz də heç olmasa, gündə bircə dəfə istifadə edək. Durursan liftin qarşısında, boynunu da bükürsən. O da ola bizim binanın lifti. Biri xəstədir, halı tez-tez dəyişir. Xəstəxanalıq olur. Qalır o biri. O da ki, 24 mərtəbənin arasında olub girinc. Ancaq "Wolt" qaldırır, endirir.

O gün işdən yorğun-arğın getmişəm, liftin qapısı ağzında dayanıb həsrətlə gözləyirəm ki, indi enər, birazdan enər. Enməyinə endi. "Wolt" liftdən özünü necə bayıra saldısa, çantası ilə məni yıxıb biryolluq etmişdi az qala. Dedim lənət şeytana, ağzını açasan, necə açasan, adamın yazığı da gəlir uşaq-muşağa, deyirsən, cəhənnəm, qoy qazancını etsin. Ağzını açmırsan da imkan vermirlər axı.

Yolda "Wolt", liftdə "Wolt", qapının ağzında "Wolt". Yaxşı, yola verin, deyirsiniz, verək. Axı evdə də rahat oturmağa imkan vermir bu "Wolt"lar. İki dəqiqədən bir qapının zəngi çalınır. Baxırsan ki, qapının ağzında bir cılız uşaq, çiynində də özündən iki dəfə böyük "Wolt". Açırsan o kameranı, "ay bala, kim lazımdır" soruşursan. Cavab verir ki, filan nömrəli ev buradır? Deyirsən, ay bala yox, biz "Wolt", filan sifariş verməmişik. Çıxıb gedir. Bir az keçir, bir də zəng çalınır, bir az keçir bir də. Vallah, işimizi-gücümüzü ötürüb yalnız bu "Wolt"lara "yox, xeyr" deməklə məşğuluq

Belədə iş olar? Ay canım, ay gözüm, adam nə qədər "Wolt" sifariş edər, adam nə qədər "Wolt" yeyər. Adam nə qədər uşağının, özünün kökəlib ölçüdən çıxmasından şikayət edər. Adama nə qədər deyəsən ki, ay bala, sizin dərdiniz bu "Wolt"lardır. Adam da nə qədər "Wolt"un tərəfində olub, "yox, onluq heç nə yoxdur" deyər?

Vallah, and olsun Allaha, qalmışıq zülmə. "Wolt"a çəkil o yana deyə bilmirsən, ürəyin imkan vermir, "Wolt" da əvəzində çıxır təpənə. Kökələnə də məsləhət verirsən, başlayır "Wolt"un tərəfini saxlamağa, hələ bir məsləhətin üçün səndən inciməyə.

Yaxşı, nə edək? Nə edəcəyik ki? Belə canımız gözümüzdən çıxsın, belə bina tikən liftdən o yana pilləkən qoyub, gedib oradan çıxaq evimizə. Onsuz da 3-cü, 4-cü mərtəbəyə çıxanlar da, 24-ə qalxanlar da, "Wolt"lar, fəhlələr, ustalar, mebel gətirənlər, əşya daşıyanlar, məişət tullantılarını götürənlər, hamısı liftin qarşısında bərqərardılar. Onlar da əziyyət çəkib pilləkənlə çıxsınlar da. Bir halda ki, lift ancaq "Wolt"lara işləyir.

Ya da "Wolt"ları sifariş edənlər əziyyət çəkib pilləkənlə qalxsınlar, liftdəki yerlərini "Wolt"lara versinlər. Onda da axı ürəkləri narahat olar. Kilolarla bədənlərini necə o yüksək mərtəbələrə qaldırsınlar ki? "Wolt"lar onları elə günə qoymayıb ki, ikicə mərtəbə qalxa bilələr.

Odur ki, deyəsən bu məsələnin çözümü olmayacaq. Hardan olacaq axı. Bir halda ki, "Wolt"lar daşımaqda, bizlər də dayanmadan-durmadan yeməkdəyik, heç inanmıram ki, yaxın gələcəkdə bu məsələnin çözümü olsun. Yenə Allah-təala bina sahibinin ürəyinə bir mərhəmət salsın, bəlkə o biri liftə bir əl gəzdirə ki, biri ilə "Wolt"lar qalxanda, o biri ilə də biz biçarə bina sakinləri növbə ilə qalxaq

***Mətanət Məmmədova***

## Ulduz futbolçudan türkiyəli müğənniyə eşq mesajı...

Hazırda icarə əsasında İstanbulun "Qalatasaray" futbol klubunda çıxış edən PSJ-nin futbolçusu Mauro İkardi artıq İstanbulda özəl həyatı ilə də gündəmə gəlməkdədir. "cim-bom" azarkeşlərinin çox sevdiyi argentinalı futbolçu həyat yoldaşı Nara ilə ayrıldıqdan sonra deyəsən yeni eşq macərası yaşamağa başlayıb. Bir müddətdir Türkiyəli müğənni Simgə Sağın ilə eşq yaşadığı deyilən ulduz futbolçu, son paylaşımı ilə sanki bu deyilənləri doğrulayıb. Belə ki, "Qalatasaray"ın stadionunda Simgənin ifa etdiyi "Aşkın olayım" mahnısı səsləndirilib. Azarkeşlərin bir ağızdan səsləndirdikləri bu mahnıdan sonra ulduz futbolçu özü mahnını zümzümə edərək S. Sağına mesaj yazıb: "Qüsurumuza baxma. Bu mahnını sənin kimi oxuya bilmərik. Amma azarkeşlərin sevdiyi mahnıdır, bacardığımız qədər oxuduq."

S.Sağın isə, "duyğularım qarışıqdır. Özüm "Beşiktaş"lıyam, amma mahnım "Qalatasaray" stadionunda oxunur. Bir də bunu İkardi zümzümə edirsə.." yazaraq fikrini tamamlayıb.



## ELAN

"Bakı İxtisaslaşdırılmış Mexanizasiya-7" Aciq Səhmdar Cəmiyyəti Səhmdarlara bildirir ki, 10 iyul 2023-cü il saat 10-00 Bakı şəhəri 7-ci MKR, Xarici darəvi küçə 3121 məhəllə ünvanında yerləşən inzibati binasında səhmdarların növbədənkənar ümumi yığıncağı olacaqdır.

Yığıncağın gündəliyində müzakirə olunacaq məsələlər aşağıdakılardı:

1. ASC-nin 2023-cü il I-ci rübdə texnikanın satışından əldə etdiyi mənfəətin bir hissəsinin müzakirəsi və bölüşdürülməsi barədə.
2. Təşkilatı məsələlər.
3. Carı məsələlər.

Yığıncaq iştirakçılarının qeydiyyatı 09.00-dan 09.45-dək göstərilən ünvanda keçirilir.Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi və şəxsiyyəti təsdiq sənəd olmalıdır.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-14.00 dək ASC-nin İdarə heyəyinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər.

**TEL: +994 50 212 16 13**
**Müşahidə şurası.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**